Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

6 MART 2020-ci il

№ 41 (4172)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# NEFTÇALANIN O İCRA BAŞÇISI KİMİ BAŞÇILAR HƏLƏ DƏ VAR, ONLARIN HƏR BİRİ ARAŞDIRILACAQ - PREZİDENT MESAJI...

■ səh. 8-9 ■

İlham Əliyevin mesajı - Azərbaycanın dünya ilə 2021-ci ilin fevralından başlayacağı yeni strategiya...

■ səh. 3 ■

Aprel döyüşləri Ermənistanda vəziyyəti yenidən qarışdırmağa başlayıb

■ səh. 10 ■

Ankaranın Qarabağ gedişləri rəsmi İrəvanı zəlzələ kimi silkələdi

■ səh. 6 ■

"Freedom House"da "Azərbaycan düşməni - erməni barmağı" yenə fəaliyyətdə - 49 ölkədən biri...

■ səh. 5 ■

ABŞ-da illik məşhur mükafatı almış 12 dünya qadınından biri - Şəhla Hümbətova...

■ səh. 7 ■

Azərbaycanın təşəbbüsü ilə ərsəyə gəlmiş format dünya neft hasilatçılarını yenə xilas edəcək

■ səh. 12 ■



■ səh. 4-14 ■

## Azərbaycan virusa qarşı daha güvənli oldu - əsas əks-vasitə olan test ehtiyatı kifayət qədərdir, Bakı əhalisi xüsusi alqoritmlə yoxlanacaq, İsraildən isə...

*Koronavirus Azərbaycandan başqa hər yerdə tüğyan edir*





Rusiya azərbaycanlılarının şikəst «AzerRos»u - Söyün Sadıqov, Abbas Abbasov, Mehriban Sadıqova və daha kimlər...

■ səh. 9 ■

Paşinyandan daha bir gülməli hərəkət - Məsihin də «kadrları» ona xəyanət etmişdilər...

■ səh. 11 ■

Paşinyanın Gürcüstanda erməni diasporu ilə şok qızışdırıcı söhbəti - «Türkiyə Batumu alacaq»...

■ səh. 7 ■

■ səh. 5 ■

Azərbaycanda "Xalq Parlamenti" - faydasız romantika dövrünü yenidən diriltmək cəhdləri...



■ səh. 13 ■

Koronavirusla mübarizə dövründə Azərbaycan mediasının peşəkar və dövlətçi davranışları...



■ səh. 11 ■

Bəşər Əsədin son bəyanatlarına Ərdoğanın reaksiyası maraqlı olacaq - "Sizə nə düşmənçilik etmişəm"...



■ səh. 14 ■

Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın koronavirusla kompleks mübarizəsinə necə qiymət verdi...



■ səh. 15 ■

Yazıçılar Birliyində nə var ki, nə də "yeyintiyə yol verilsin"?!...





# Prezident 8 Mart təbrikində Azərbaycan qadınlarını cəmiyyətimizin mənəvi dayağı adlandırdı

**Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib.**

Təbrikdə deyilir ki, "Azərbaycan qadınları tariximizin hər bir dövründə cəmiyyətin mənəvi dayağı olmuşlar. Xalqımızın əsrlər boyu təşəkkül tapmış zəngin milli mədəni sərvətlərinin hifz edilməsində və ali bəşəri keyfiyyətlərin nəsildən-nəslə ötürülməsində onların misilsiz xidmətləri vardır.

Yeni cəmiyyət quruculuğu şəraitində ictimai fəallıqlarını gücləndirərək sosial-mədəni həyatda yaxından iştirak etmələri Azərbaycan qadınlarının yüksək intellektual səviyyəsinin aydın təzahürüdür. Azərbaycanın dövlət müstəqilliyini bərpasından sonra da onlar sosial fəallıqları ilə seçilmiş, təhsil, səhiyyə, elm və mədəniyyət sahələrində çoxsaylı nailiyyətlər qazanmışlar. Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər.

Əminəm ki, siz hər zaman olduğu kimi bundan sonra da övladlarımızın milli mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək və Azərbaycanın inkişaf salnaməsinə parlaq səhifələr yazacaqsınız.

**Bayramınız mübarək olsun!"**

## OPEC ölkələrinin, Azərbaycan da daxil, koronavirus dövrü üçün yeni neft qərarı...

**Avstriyanın Vyana şəhərində keçirilən görüş zamanı OPEC üzvü ölkələrin nazirləri OPEC+ sazişi çərivəsində neft hasilatını koronavirus təhlükəsi ilə əlaqədar sutkada 1,5 milyon barrel azaltmaq qərarına gəlib.**

"Trend"in məlumatına görə, bununla bağlı yekun qərar Rusiyanın bu razılaşmaya qoşulub-qoşulmamasından asılı olacaq. Yekun qərarın ən geci martın 6-da qəbul olunacağı gözlənir.

## BŞİH qadınların yürüşünə icazə verdi - ən münasib yer kimi Lökbatanı göstərdi...

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Azərbaycan Feminist Hərəkatının yürüş keçirməklə bağlı müraciətinə cavab verib.**

"Trend"in məlumatına görə, meriyanın cavabında qeyd edilib ki, yürüşün keçirilməsi üçün müraciətdə qeyd olunan ərazi əhalinin daha sıx hərəkət etdiyi ərazi olduğundan, həmçinin burada çoxlu iaşə, ticarət, xidmət və əyləncə obyektləri yerləşdiyindən ictimai təhlükəsizlik baxımından kütləvi tədbirin keçirilməsi məqsədə müvafiq deyil.

Yürüşün keçirilməsi üçün alternativ yer olaraq müraciət edənlərə 8 mart 2020-ci il tarixdə, saat 15:00-dan 16:00-dək Qaradağ rayonu, Lökbatan qəsəbəsi 28 May küçəsi ilə Həzi Aslanov küçəsinin kəsişməsindən, Həzi Aslanov küçəsi ilə "Neftçi İdman Klubu İctimai Birliyinin Qaradağ təlim-idman bazası"nın yanından hərəkət etməklə 20 Yanvar küçəsi boyunca 5-ci yaşayış massivi istiqamətində olan marşrut təklif olunub.

# Yeni-köhnə deputatlar uzağı bir həftəyə toplaşacaqlar

*Konstitusiya Məhkəməsi seçkilərin yekun nəticələrini təsdiq edib*

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2020-ci il fevralın 9-da Milli Məclisə keçirilmiş seçkilərin nəticələrini təsdiq edib. "Trend"in məlumatına görə, Plenumun iclasında Milli Məclisə seçkilərin nəticələrinin yoxlanması və təsdiq edilməsinə dair yekun qərar qəbul olunub.**



Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Plenumun qərarını elan edib. Qərara əsasən Konstitusiya Məhkəməsi Milli Məclisə keçirilmiş seçkilərin nəticələrini təsdiq edib.

Milli Məclisin yeni tərkibdə ilk iclasının vaxtı hələ məlum deyil. Bunu jurnalistlərə açıqlamasında Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev deyib.

O qeyd edib ki, qanunvericiliyə əsasən, Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiq etdikdən sonra ilk iclas bir həftə ərzində keçirilməlidir: "Bununla bağlı hələ qərarın verilməsini gözləyirik".

S.Mirzəyev əlavə edib ki, Milli Məclisdə hələ bir çox qəbul edilməmiş sənədlər qalır: "Yəqin ki, o sənədləri ilk növbədə müzakirəyə çıxaracağıq. Gözləyirik ki, qanunverici orqanın subyektlərinə yeni qanun layihələri gələcək. Ölkədə keçirilən iqtisadi-sosial islahatlarla əlaqədar mövcud qanunlara dəyişikliklər qəbul olunacaq".

Aparat rəhbəri vurğulayıb ki, Milli Məclisin yaz sessiyası, qanunvericiliyə uyğun olaraq, mayın 31-i başa çatacaq.



# Sabunçu xəstəxanasında 26 yaşlı xəstənin guya koronavirusdan ölüm xəbəri tam yalan çıxdı

**Nazirlər Kabineti yanında Operativ Qərargah və Baş Prokurorluğun məlumatına görə, son günlər bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə ölkəmizdə narahatlığa səbəb olmaqla cəmiyyətdə süni ajiotaj yaradılmasında maraqlı olan şəxslər tərəfindən, qərəzli olaraq, guya "COVID-19" adlanan virus və ya koronavirus epidemiyasına yoluxmuş şəxsin 3 saylı Şəhər Klinik Xəstəxanasında (Sabunçu xəstəxanası) vəfat etməsi ilə bağlı səs yazısı yayılıb.**

Eyni zamanda qeyd edilən mövzuda yalan məlumatların yayılması, o cümlədən kütləvi informasiya vasitələri tərəfindən süni ajiotaj yaratmaq məqsədilə xəbər başlıqlarının məzmununda bilə-bilə çaşqınlığa səbəb olan ifadə və fotoşəkillərdən istifadə edilməsi müşahidə olunur.

İctimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib olunur. Belə ki, 1994-cü il təvəllüdlü paytaxt sakini Nəzakət Ramazanovanın fevralın 29-da 3 saylı Şəhər Klinik Xəstəxanasında ağ ciyərlərin pnevmaniyası səbəbindən vəfat etməsi faktı ilə polis və prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib.

N.Ramazanovanın ölümünün səbəbinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibb ekspertizası təyin edilərək, onun meyiti xarici və daxili müayinə olunub. Mərhumdan müayinə üçün götürülmüş nümunələrdə hər hansı bir infeksion xəstəlik aşkar edilməyib.

Faktla bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma davam etdirilir.

Baş Prokurorluğun açıqlamasında o da qeyd olunur ki, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlərin görülməsi təmin ediləcək.

**Aydın Quliyev Səbuhi Məmmədliyə atası Məmməd kişinin vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin.**

**"Hamınızı gələn ilin fevralında qonağımız olaraq buraya dəvət etmək istəyirəm. Çünki hesab edirəm ki, TAP-ın tikintisinin tamamlanması bizim komanda işimizin sonu demək deyil". Bunu Prezident İlham Əliyev Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında bildirib.**

*"Bunun üçün isə, təbii ki, bir araya gəlib, bu perspektivləri götür-qoy edib, bir strategiya müəyyən etmək lazımdır"*

# İlham Əliyevin mesajı - Azərbaycanın dünya ilə 2021-ci ilin fevralından başlayacağı yeni strategiya...

## *Fikrət Yusifov: "Söhbət ondan gedir ki, digər qaz ixracatçısı olan ölkələrin CQD-yə qoşulması ilə bağlı gözləntilər var"*

Dövlət başçısının sözlərinə görə, gələcək üçün strategiya hazırlanacaq: "Düşünürəm ki, gələn ilin fevral ayında burada - Bakıda bir çox məsələləri nəzərdən keçirmək lazımdır. Sonra da biz gələcək üçün strategiyamızı hazırlayacağıq. Keçən ilin fevral ayında biz 2018-ci ilin iyununda Türkiyə bazarına çatan TANAP-ın hissəsinin uğurla tamamlanması barədə məlumat verdik. Bu dəfə isə biz qürur hissilə artıq Türkiyə-Yunanıstan sərhədinə çatmış TANAP-ın tamamlandığını bildiririk. Bu, bizim meqalayihəmizin icrasında çox mühüm mərhələdir. Bu gün "Cənub Qaz Dəhlizi" layihəsinin tamamlanması vəziyyətinin çox yüksək olduğu və sizə də yaxşı məlum olduğu kimi, TAP layihəsinin təqribən 92 faiz tamamlandığı bir vaxtda ümid edirəm ki, bu ilin sonuna kimi biz "Cənub Qaz Dəhlizi" layihəsinin açılışını qeyd edəcəyik"

Görünən odur ki, dövlət başçısı bu fikirləri ilə Azərbaycanın hər layihənin uğurlu sonluqla başa çatmasının iştirakçısı olmaqla yanaşı, eyni zamanda, yeni layihələrin gündəmə gətirilməsində maraqlı olduğunu bir daha bəyan edir. Reallaşan hər bir layihə Azərbaycanın ölkələr, xalqlar arasında körpü roluna yeni əlavələr edir.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Gələcək üçün strategiya dedikdə burada söhbət nədən gedir?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, burada söhbət digər ölkələrin də CQD-yə qoşulmasından gedir: "Söhbət ondan gedir ki, digər qaz ixracatçısı olan ölkələrin CQD-yə qoşulması ilə bağlı gözləntilər var. Sözügedən kəmər vasitəsilə öz qaz resurslarını Avropa bazarına çıxaracaqlar. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən, Avropaya çatacaq qazın




bölüşdürülmə məsələlərində iştirak məsələsi var. Yəni sonrakı mərhələdə lazım gələrsə, bu kəmərin daha da genişləndirilməsi və digər ölkələrin ərazisinə çatdırılması məsələsi var. Deməyim odur ki, sözügedən iş davamlı olacaq. Çox güman ki, Prezident çıxışında bunları nəzərdə tutub.

Heç şübhəsiz, bunu nəzərdə tutaraq qeyd etdi ki, CQD-nin 4-cü seqmenti olan TAP kəməri artıq başa çatır və ilin sonuna qədər istismara veriləcək. Artıq TAP-la bağlı işlərin 92 faizi görülüb. Ancaq TAP-ın başa çatması o demək deyil ki, görülən işlər bitəcək. Digər layihələrlə də bağlı istəklər var və çox güman ki, onların reallaşması üçün işlər görüləcək. Bunun üçün isə, təbii ki, bir araya gəlib, bu perspektivləri götür-qoy edib, bir strategiya müəyyən etmək lazımdır. Hesab edirəm ki, 2021-ci ildə növbəti sözügedən strategiyanın əsası qoyulacaq".

***Vidadi ORDAHALLI***

**"Son illər Azərbaycanda aparılan uğurlu islahatlar ümumi inkişafa böyük töhfələr verməklə yanaşı, regionların siması əsaslı şəkildə dəyişir, insanların sosial şəraitini daha da yaxşılaşdırır.**

# Prezidentin bölgələrə bu səfəri daha genişmiqyaslı və uzunmüddətli oldu

## *Vüqar Rəhimzadə: "Vətəndaşların sağlamlığı hər zaman möhtərəm Prezidentimizin diqqət mərkəzindədir"*



Möhtərəm Prezidentimiz mütəmadi olaraq ayrı-ayrı rayonlara səfərlər edir, insanlarla görüşür, onların problemlərini, qayğılarını öz dillərindən eşidir və həlli ilə bağlı ciddi tapşırıqlar verir. Bununla cənab Prezident Azərbaycan dövlətinin hər zaman öz vətəndaşının yanında olduğunu nümayiş etdirir. Elə ölkəmizin başçısının regionlara hələ də davam edən son səfərləri də bunu sübut edir. Son günlər dünya gündəmini zəbt edən koronavirus təhlükəsinə, kütləvi tədbirlərin məhdudlaşdırılmasına baxmayaraq, dövlətimizin rəhbəri regionlara səfərlərini təxirə salmadı. Hətta xüsusi olaraq vurğulamaq lazımdır ki, bu səfərlər digərlərindən daha genişmiqyaslı və uzunmüddətli oldu. Möhtərəm Prezidentimiz bir neçə rayonda müxtəlif obyektlərin açılışında iştirak etdi, insanlarla görüşdü. Bütün bunlar bir daha insan amilinin Azərbaycanda dövlət siyasətinin əsas istiqaməti olduğunu sübut edir". Bu fikirləri KİV-ə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, hazırda ölkəmizdə səhiyyə xidmətinin daha da yaxşılaşdırılması istiqamətində addımlar atılır: "Bu gün nəinki paytaxtda, ayrı-ayrı rayonlarda ən yüksək standartlara cavab verən avadanlıqlarla təchiz olunmuş müasir tipli səhiyyə ocaqları istifadəyə verilir. Məqsəd insanlara göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılmasıdır. Bu günlərdə möhtərəm Prezidentimizin Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etməsi bir daha göstərdi ki, ölkəmizdə müasir səhiyyə infrastrukturu formalaşdırılır və vətəndaşların sağlamlığı hər zaman diqqət mərkəzindədir. Son 16 ildə bölgələrdə 22 yeni xəstəxana, 15 diaqnostika müalicə mərkəzi inşa edilib, 28 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub,5 xəstəxananın tikintisi davam edir. Ümumilikdə isə ötən 16 ildə ölkədə 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub. Qeyd etdiyimiz statistik rəqəmlər dediklərimizin əyani göstəricisidir".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, hazırda ölkəmizdə koronavirusla bağlı vəziyyət tam nəzarətdədir: "Məlum olduğu kimi, möhtərəm Prezidentimizin göstərişi ilə Nazirlər Kabineti yanında xüsusi Operativ Qərargah yaradılıb, təxirəsalınmaz tədbirlərin görülməsi üçün 10 milyon manat ayrılıb. Tədris, təlim-tərbiyə müəssisələri müvəqqəti bağlanılıb, maarifləndirmə işləri davam etdirilir, kütləvi tədbirlər təxirə salınıb, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıb. Bir sözlə, vəziyyət tam nəzarət altındadır".

# Azərbaycan virusa qarşı daha güvənli oldu - əsas əks-vasitə olan test ehtiyatı kifayət qədərdir, Bakı əhalisi xüsusi alqoritmlə yoxlanacaq, İraildən isə...

**İran İslam Respublikasından Azərbaycana gələn daha üç şəxsdə koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, həmin şəxslərdən biri 1988-ci il təvəllüdlü Almaniya vətəndaşı, digər iki nəfər isə 1994 və 1999-cu il təvəllüdlü, İranın Qum şəhərində təhsil alan Azərbaycan vətəndaşlarıdır.**

Həmin şəxslər xüsusi rejimli xəstəxanaya yerləşdirilib.

Hazırda pasiyentlərin vəziyyəti kafidir, hərarətləri normaldır, şikayətləri yoxdur.

Onların müalicəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

İndiyə qədər koronavirusa yoluxmuş bütün şəxslərin səhhəti ciddi nəzarətdə saxlanır, onların müalicəsi ilə bağlı zəruri tədbirlər davam etdirilir.

Martın 4-də Səhiyyə Nazirliyində geniş müşavirə keçirilib. Səhiyyə naziri Oqtay Şirəliyevin sədrliyi ilə keçirilən iclasda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta Dövlət Agentliyinin müvafiq strukturlarının rəhbər və əməkdaşları iştirak edib.

Müşavirədə qeyd edilib ki, epidemiya təhlükəsinə qarşı tədbirlər Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri nəzərə alınmaqla, birgə səylərlə davam etdirilməlidir.

Koronavirusla mübarizə sahəsində keçirilən müşavirədə xəstələrin müalicə və profilaktikası məsələlərinin səmərəli təşkili, eləcə də əks-epidemik tədbirlərin səmərəliliyinin daha da artırılması istiqamətində işlərin gedişi müzakirə olunub.

Ölkədə kifayət qədər test ehtiyatının olduğu vurğulanıb və ehtiyac yarandığı təqdirdə ölkəyə gətirilməsi imkanları müzakirə edilib.

Müşavirədə xarici ölkələrdən gələn vətəndaşların yoxlanılması, və yoxlamaya cəlb edilmək üçün səbəb ola bilən əlamətlərin siyahısı müəyyənləşdirilib.




"Koronavirusla bağlı İsraildən Azərbaycana ekspertlər gələcək". Bunu isə koronavirusla əlaqədar keçirilən brifinqdə Nazirlər Kabineti yanında yaradılan operativ qərargahın üzvü, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva deyib.

Onun sözlərinə görə, hazırda Azərbaycanda koronavirusun təsdiqləndiyi 3 nəfər var. Onların vəziyyəti stabildir və həkim nəzarətindədirlər:"İranla sərhəddə 14 günlük karantin tətbiq edilir. 276 nəfər xüsusi dəhliz vasitəsilə İrandan Azərbaycana keçib. Onların hamısı karantin şəraitində saxlanır".

Y.Qarayeva əlavə edib ki, xəstəliyin diaqnostikası yalnız ÜST-ün tələblərinə cavab verən testlər vasitəsilə aparılır.

O qeyd edib ki, martın 3-dən 9-dək təhsil müəssisələrinin bağlanması qabaqlayıcı tədbirdir: "Valideynlər uşaqları bu müddətdə qapalı yerlərə aparmasınlar. Xahiş edirik ki, hər kəs bizim verdiyimiz tövsiyələrə əməl etsin".

TƏBİB yoluxucu xəstəliklər işçi qrupunun rəhbəri Vasif Əliyev deyib ki, hazırda Azərbaycanda 500-dək insan koronavirusa görə karantin şəraitində saxlanır. Onun sözlərinə görə, bu xəstəlik insanlarda, adətən, daha yüngül formada keçir. Koronavirusa yoluxanların 4-5 faizində xəstəlik ağır formada keçir və onların xəstəxanada müalicə edilməsinə ehtiyac olur.

Vasif Əliyev bildirib ki, Azərbaycanda koronavirusa görə ölüm faktı baş verməyib. TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva isə deyib ki, uşaqların əyləncə mərkəzlərinə və digər qapalı məkanlara getməməsi ilə əlaqədar qadağa qoya bilməzlər: "Məktəblərin bağlanması ona görə edildi ki, uşaqlar bir yerdə kütləvi şəkildə olmasın. Bununla bağlı valideynlər arasında da maarifləndirmə tədbirləri aparılır. Bunu valideynlər özləri dərk etməlidirlər".

"İranla sərhədərdə keçidin məhdudlaşdırma vaxtının uzadılıb-uzadılmayacağı barədə indi fikir söyləmək mümkün deyil" deyən Y.Qarayevanın sözlərinə görə, karantində saxlanılanlar əsasən, İrandan gələn insanlardır: "Karantində saxlanılan 500-dək insanlar əsasən, cənub sərhədlərini keçən insanlardır. Onlar mütləq müayinə olunurlar. Tibb personalının qorunması bizim əsas vəzifəmizdir. Ehtiyac olan hər şey alınır".

Y.Qarayeva əlavə edib ki, Bakıda karantində saxlanılan şəxslər yoxdur. Hazırda əsas karantin xəstəxanaları Astara, Cəlilabad və Qobustan xəstəxanalarıdır. Digər xəstəxanalar dəstəkverici müəssisələrdir.

**Qərargah üzvü bildirib ki, koronavirusun müəyyən edilməsi üçün testlər bu yaxınlarda Azərbaycana gətirilib:"Bunun gətirilməsi mütəmadi olaraq davam edəcək və testlərlə təminat sahəsində heç bir çətinlik olmayacaq".**

Y.Qarayeva Azərbaycanda heç bir kəsin karantindən yayınması halının baş vermədiyini deyib. Onun sözlərinə görə, karantinin şərtlərinə hər kəs riayət etməlidir və bu işin təşkili müvafiq orqanlar tərəfindən tənzimlənir:"Vətəndaşlar narahat olmasınlar, əgər belə hal olarsa, onun qarşısı alınacaq".

**Azərbaycanın baş infeksionisti Cəlal İsayev isə regionlarda və Bakı şəhərində koronavirusla bağlı ixtisaslaşmış mərkəzlərin yaradılacağını deyib. Onun sözlərinə görə, bu mərkəzlərdə insanlar xüsusi alqoritmlə yoxlanacaq: "Koronavirus aşkarlanan şəxslər həmin mərkəzlərdə karanatinə alınaraq müalicə olunacaqlar".**

"Freedom House" təşkilatı martın 4-də dünyada insan hüquqlarının vəziyyəti haqqında illik hesabatını dərc edib. Sənədə əsasən, 2019-cu ildə siyasi və mülki hüquqlar sahəsində irəliləyiş əldə etmiş ölkələrin sayı iki dəfə artıb.

*"Başlıca olaraq bu təşkilat erməni lobbisinin əlində alətdir"*

# "Freedom House"da "Azərbaycan düşməni - erməni barmağı" yenə fəaliyyətdə - 49 ölkədən biri...

***Vüqar Rəhimzadə:** "Davamlı olaraq Azərbaycanı qaralamaqla məşğuldur"*

14-cü ildir "qlobal azadlıq" sahəsində pisləşmə müşahidə olunur. "Azad olmayan ölkələrə" 49 dövlət aid edilib. Təşkilat yenə qərəzli mövqedən çıxış edərək Azərbaycanı "azad olmayan" ölkələr qrupuna aid edib. Azərbaycandan başqa həmin ölkələrin içində Türkmənistan, Tacikistan və digər ölkələr var.

Hesabatda, həmçinin, bu il ölkə parlamentinə keçirilən növbədənkənar seçkilərə toxunulur. Aparıcı müxalif qüvvələrin bir hissəsi seçkiləri boykot edib. "Freedom House" iddia edir ki, guya seçkilər qanun pozuntuları, o cümlədən, jurnalistlərin qorxudulması ilə müşayiət olunub. Təşkilat hesab edir ki, Azərbaycanda siyasi mühit plüralist və rəqabətqabiliyyətli deyil. Guya namizədlərin seçkiqabağı mitinqlər keçirmək imkanları məhdudlaşdırılıb, ifadə və mətbuat azadlıqları sistemli şəkildə pozulur, diffamasiya əvvəlki kimi cinayət tərkibi olaraq qalır. Qurum iddia edir ki, jurnalistlər və onların yaxınları zorakılıq və qorxutma ilə üzləşirlər, müstəqil saytlar vaxtaşırı bloklanır və s.

Göründüyü gimi, sözügedən təşkilat Azərbaycana yönəlik qərəzli mövqeyini bu dəfə də nümayiş etdirib. Yenə də bəlli dairələrin sifarişini icra edərək tutarlı əsaslar ortaya qoymadan Azərbaycanı "azad olmayan" ölkələr qrupuna aid edib. Bu bir daha "Freedom House"un qeyri-obqeyktiv və qərəzli bir təşkilat olduğunu ortaya qoyur.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, "Freedom House" təşkilatı erməni lobbisinin təsiri altında olduğu üçün sözügedən hesabatın obyektivliyindən söhbət gedə bilməz: "Freedom House" təşkilatı bəzi dairələrin əlində bir alət və təsir vasitəsidir. Ona görə də adıçəkilən təşkilatın hazırladıqları hesabatlar sifarişə uyğun olaraq yazılır. Başlıca olaraq bu təşkilat erməni lobbisinin əlində alətdir. Yaxşı olardı ki, "Freedom House" öz azadlığı barəsində düşünsün. Bu təşkilat QHT kimi fəaliyyət göstərsə də, azad deyil. Davamlı olaraq bu təşkilat Azərbaycanı qaralamaqla məşğuldur. Bu da təsadüfi deyil. Çünki sifarişi bu cür verirlər. Azad olmayan ölkədə internet, media necə azad olar? Bu gün Azərbaycanda bütün azadlıqlar təmin olunub.

Ancaq "Freedom House" təşkilatı bunları görmək istəmir. Ona görə də bu təşkilat qeyri-ciddi və mənfi obraza malik bir təşkilatdır. O üzdən, bu təşkilatın hazırladığı hesabatlar məni təəccübləndirmir. Aydın məsələdir ki, bu təşkilatın hazırladığı hesabatlarda Azərbaycanla bağlı məqamlar qərəzli olacaq. Bunun da səbəbləri, qeyd olunduğu kimi, məlumdur. Bu təşkilatın hesabatları ciddi qəbul oluna bilməz".

***Vidadi ORDAHALLI***

---

Konstitusiya Məhkəməsi 9 fevralda keçirilən növbədənkənar parlament seçkilərinin nəticələrini təsdiq edib. Bununla da yeni seçilən deputatların üzvlüyü ilə Milli Məclisin tərkibi təsdiq edilib. Ancaq qəribədir ki, bəzi partiyalar və seçkidə iştirak edən namizədlər bu reallıqla barışmayaraq utopik ideyalarla çıxış edirlər.

***Məhərrəm Zülfüqarlı:** "İndiki dövrdə bu kimi təşəbbüslərin perspektivi yoxdur"*

***Seyid Camal Əzimbəyli:** "Bu, ucuz siyasi romantikadan başqa bir şey deyil"*

# Azərbaycanda "Xalq Parlamenti" - faydasız romantika dövrünü yenidən diriltmək cəhdləri...






Belə ki, seçkinin nəticələrindən narazı qalan bir sıra siyasi partiyalar və özlərini seçkinin qalibi hesab edən bəzi keçmiş bitərəf namizədlər "Xalq Parlamenti"nin yaradılması ideyası ətrafında birləşirlər. Hətta iddia edirlər ki, guya bu təşəbbüsə qoşulanların sayı iki yüzdən artıqdır.

Martın 3-də bir qrup deputatlığa keçmiş namizəd "Hüquq Maarifçiliyi Evi"ndə toplantı keçirib. Toplantı 9 fevral parlament seçkilərində namizəd olmuş şəxslərdən ibarət simvolik "Xalq Parlamenti" yaradılmasına hazırlığa həsr olunub. İdeyanı dəstəkləyən siyasi partiyalr VİP, ADP, "Ağ Partiya" və Böyük Azərbaycan Partiyasıdır. Sözügedən partiya rəhbərləri bir araya gəlib müzakirələr keçiriblər.

Bütün bunlar onu göstərir ki, bəzi siyasilər 90-cı illərin təsirindən hələ də çıxa bilmirlər. İndiki vaxtda siyasi romanikanı bu yolla yenidən dirçəltmək istəyirlər. Hansı ki, bunun vaxtı çoxdan ötüb. O baxımdan belə təşəbbüslərlə çıxış etmək nə dərəcədə doğrudur?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, indiki dövrdə bu kimi təşəbbüslərin perspektivi yoxdur: "Düzdür, seçkinin nəticələri ilə razılaşmamaq hər bir namizədin konstitusion hüququdur. Bəziləri bununla bağlı öz şikayətlərini MSK-ya bildirib. Şikayətlərin bəzilərinə baxıldı və iradlar qəbul edildi. Digər hissəsi isə qəbul edilmədi. Bəzi namizədlər bununla razı deyil və məhkəməyə müraciət edəcəyini bildiriblər".

Şərqşünas Seyid Camal Əzimbəylinin fikrincə, bu, ucuz siyasi romantikadan başqa bir şey deyil: "Müasir dövrdə belə ideyaları reallaşdırmaq mümkün deyil. Kimlərsə fikirləşir ki, bununla nəyəsə nail olacaq, tamamilə yanılır. Belə ideyaların vaxtı çoxdan keçib. Bununla nəyəsə nail ola bilməyəcəklər. Əksinə, özlərini daha da gülünc vəziyyətə qoyacaqlar. Ona görə də bunun perspektivi iflasa məhkumdur".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ankaranın Qarqbağ gedişləri rəsmi İrəvanı zəlzələ kimi silkələdi

**Qardaş Türkiyənin Dağlıq Qarabağ münaqişəsinə dair tutduğu mövqe, Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləməsi, beynəlxalq ictimaiyyəti bu istiqamətdə müvafiq addımlar atmağa çağırması işğalçı Ermənistanda getdikcə daha böyük narahatlıq yaratmaqdadır.**

Xüsusən də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə son görüşündən sonra bu məsələ hələ də aktual şəkildə Ermənistanda müzakirə olunur.

Həmin görüşdə isə Çavuşoğlu bildirib ki, ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində daha aktiv fəaliyyət göstərməlidir. Nazir vurğulayıb ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında həll edilməlidir. Görüşdən müəyyən müddət keçsə də, məsələ hələ də Ermənistanda əsas müzakirə mövzularıdan birini təşkil edir. Erməni tərəfinin əsas qorxusu Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilərdən biri kimi iştirak edə biləcəyidir. Məsələ Ermənistan parlamentində yenidən müzakirəyə çıxarılıb. Erməni deputat Taron Simonyan bu xüsusda xarici işlər naziri Zohrab Mnatsakanyana növbəti dəfə sual ünvanlayıb. Mnatsakanyan bu məsələdə erməni tərəfinin narahatlığına indiki halda ciddi əsas olmadığını iddia edir. Onun sözlərinə görə, həmsədrlərin Mövlud Çavuşoğlu ilə görüşü planlaşdırılmış xarakter daşıyıb və Türkiyə Qarabağ konfliktinin həllində iştirak etməyəcək: "ATƏT-in Minsk Qrupunun həmsədrlərinin öz iş planı var. Bura, zərurət yarandıqda, ATƏT-ə üzv ölkələrlə görüş də daxildir. Biz həmsədrlərə tam etimad edirik. Ola bilər Türkiyə tərəfindən fərqli şərhlər olub və əslində, həmin şərhlərdə hansısa yenilik də yoxdur. Türkiyə əvvəlki mövqeyini təkrar edib. Türkiyə Qarabağ münaqişəsinin sülh yolu ilə həllində hansısa rol oynaya bilməz".

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anna Nağdalyan da bildirir ki, Ankaranın Bakıya birmənalı şəkildə siyasi, hərbi və digər dəstəyi fonunda Türkiyənin Qarabağ məsələsinin həllində iştirakı İrəvan üçün qəbuledilməzdir. Qeyd edək ki, Mövlud Çavuşoğlunun Minsk Qrupunun həmsədrləri ilə görüşü Ermənistan cəmiyyətində də ciddi narahatlığa səbəb olub. Sosial şəbəkələrdə paylaşdıqları şərhləri ilə ermənilər Türkiyənin danışıqlar prosesinə müdaxilə etdiyi iddiasını ortaya atıblar. Amma məsələ burasındadır ki, indiki halda Ermənistan rəsmiləri və cəmiyyətinin mövqeyinin özü cəfəngdir. Xatırladaq ki. daha əvvəl məsələyə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva münasibət bildirib. Onun sözlərinə görə, Ermənistan, əslində belə bir absurd mövqeyi ilə özünü kifayət qədər gülünc vəziyyətə qoyur: "Göründüyü kimi, bölgəmizdə və onun ətrafında baş verən və sürətlə cərəyan edən hadisələr ya onların görmə qabiliyyətindən və təhlil sahəsindən kənarda qalır, ya da emosiyalar yenidən üstünlük təşkil edir. Dünyada və xüsusilə də bölgədə baş verən hadisələrin dəqiq və müfəssəl təhlili erməni tərəfinin qonşu ölkələrlə münasibətlərində konstruktiv yanaşmasına kömək edə bilərdi. Türkiyə bölgədəki bütün layihə və proseslərin fəal iştirakçısıdır və Ermənistanla Azərbaycan arasındakı münaqişənin tezliklə həllində maraqlıdır. Türkiyə ATƏT-in Minsk Qrupu yarandığı ilk gündən onun daimi üzvüdür və hər zaman onun işində, eləcə də ATƏT-in Minsk Qrupu həmsədrləri ilə məsləhətləşmələrdə fəal iştirak edib. Emosiyaları yüksək olsa belə, Ermənistan tərəfinin Türkiyənin yüksək səviyyəli nümayəndələrinin ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüşünün qiymətləndirilməsində nədən təhrifə yol verdiyi aydın deyil".

"Vahid Ermənistan" partiyasının rəhbəri Artur Qazinyan isə qeyd edir ki, yaranmış durumda Azərbaycan və Türkiyə Ermənistanla müqayisədə daha güclü mövqe sahibidir və təndricən də istəklərinə nail olurlar: "Azərbaycan və Türkiyə daim Türkiyənin Qarabağ münaqişəsinin nizama salınması prosesində daha aktiv rol oynaması məsələsində səy və resursunu əsirgəməyib". O, xüsusilə qeyd edib ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin Türkiyənin xarici işlər naziri ilə görüşünü erməni diplomatiyasının ciddi uğursuzluğu hesab edir:"Yuxarıda qeyd etdiyim kimi, Azərbaycan və Türkiyə daim Türkiyənin Qarabağ münaqişəsinin nizama salınması prosesində daha aktiv rol oynaması məsələsində səy və resursunu əsirgəməyib. Suriyanın şimalında vəziyyətin gərginliyi fonunda Türkiyə geosiyasi proseslərdə regional iştirakını genişləndirərək Qarabağı Yaxın Şərq dolaşığının tənzimlənməsi gündəminə daxil etməyə çalışır. Bundan əvvəl Ərdoğan Bakıda Əliyevlə görüşmüşdü və Qarabağ problemi də ikitərəfli gündəmdən kənarda qalmamışdı. Bizi çox çətin zamanlar gözləyir".

Xatırladaq ki, Ermənistanda İdlibdə baş verən proseslərin son nəticəsinin Dağlıq Qarabağda yekunlaşa biləcəyinə dair böyük narahatlıq mövcuddur. Elə bu günlərdə "Lragir" saytı yazırdı ki, Türkiyə İdlibdə Rusiya ilə razılaşsa, əvəzində Dağlıq Qarabağın Azərbaycana qaytarılmasını tələmin edə bilər:"Hətta analitiklər Ankara və Moskvanın İdlibdəki təhlükəsizlik zonaları razılaşmasının Qarabağda da həyata keçirilə biləcəyini istisna etmir. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirdi ki, Rusiya arzulayarsa, Qarabağ problemini birgə həll edə bilərlər. İstisna deyil ki, Ankara İdlibdə Rusiya ilə razılaşmağın əvəzində Moskvadan Qarabağın Azərbaycana qaytarılmasını istəyə bilər. Türkiyə və Azərbaycan arasında fəaliyyətlərin hansısa koordinasiyası həyata keçirilib, Bakıda Ankara ilə sıx əməkdaşlıq etdiklərini gizlətmirlər". Ermənistanın Qloballaşma və Regional Əməkdaşlıq Analitik Mərkəzinin sədri, politoloq Stepan Qriqoryan da Mövlud Çavuşoğlu ilə Minsk Qrupu həmsədrlərinin Qarabağ münaqişəsinin həllinə yönəlmiş görüşünü ölkəsi üçün yerinə və zamanına uyğun hesab etmir: "Suriya ətrafında gərginləşmiş rus-türk münasibətləri fonunda Minsk Qrupunun həmsədrləri Türkiyənin Qarabağ münaqişəsi ilə bağlı fikrini ötürməli olan Türkiyənin xarici işlər naziri ilə görüşürlər. Düzünü desəm, yerinə və zamanına uyğun hesab etmirəm, üstəlik, şübhəm yoxdur ki, rəsmi İrəvanın cavabı, qismən də olsa, daha sərt olmalıdır. Amma təhlükəli məqam Ankaranın Qarabağ məsələsinin həllinə daha fəal cəlb olunmasıdır". Qriqoryanın sözlərinə görə, beynəlxalq ictimaiyyət birmənalı olaraq Ermənistanın bu görüşlə bağlı narazılığını bilməlidir. Amma o etiraf edir ki, indiki halda bunun İrəvan üçün effekti yoxdur. Çünki Türkiyə dünya üçün daha mühüm önəm kəsb edən ölkədir. Rus siyasi analitik Fyodor Lukyanov da Suriyanın İdlib bölgəsində son həftələrdə inkişaf edən hadisələr və onların Dağlıq Qarabağ münaqişəsi zonasındakı vəziyyətə təsirinə toxunarkən bildirib ki, Ankara prosesdə fəal rol ala bilər:"Bu, Ankara və Moskvanın razılığından xeyli dərəcədə asılı olan məsələdir. Dağlıq Qarabağ münaqişəsi zonasında hər zaman müharibənin yenidən başlaması təhlükəsi olsa da, münaqişə tərəflərinə qarşı təsirə sahib olan xarici aktorların bu gün Yaxın Şərqdə təsəvvür edilməsi çətin olan böyük problemləri var. Xüsusilə sərhəddəki bu münaqişə halında hər zaman atışmalar olduğu məqamda müharibə ən gözlənilməz anda alovlana bilər, lakin hesab edirəm, Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi eskalasiya, xüsusilə bu mərhələdə, həm Rusiya, həm də Türkiyə üçün olduqca arzuolunmaz inkişafdır. Məhz bu səbəbdən Türkiyə və Rusiya bu məsələ ətrafında müəyyən razılığa gələ bilərlər. Elə Ermənistanı da qorxudan budur". O qeyd edib ki, Türkiyə Qarabağ probleminin həllində sona kimi Azərbaycanın yanında olacaq. Yeni Azərbaycanın işğal altındakı torpaqları qaytarılana qədər Türkiyə Azərbaycana verdiyi dəstəyi davam etdirəcək.

Digər ekspertlər də hesab edir ki, Dağlıq Qarabağ probleminin həll edilməsində Türkiyənin özünəməxsus yeri və rolu var. Hesab edilir ki, Ankranın daha yaxından Qarabağ məsələsinin çözümündə iştrakı, əslində, Ermənistanın özünün də maraq dairəsində olmalıdır. Burada nəzərə almaq lazımdır ki, Türkiyəyə yönəlik düşmənçilik siyasətini davam etdirməsinə baxmayaraq, Ankara hər zaman Ermənistanla münasibətlərin qurulması və inkişaf etdirilməsində maraqlıdır. Amma bunun üçün əsas şərt zəbt edilmiş Azərbaycan ərazilərinin azad olunmasıdır. Digər tərəfdən, Ermənistan Türkiyə ilə münasibətlərini qaydaya salaraq iqtisadi, siyasi, sosial və təhlükəsizlik problemlərini əhəmiyyətli dərəcədə həll edə bilər. Bunu Ankara özü də dfələrlə İrəvana xatırladıb.

Digər tərəfdən, regiona böyük təsir imkanına malik Moskva da daha əvvəl belə fikirlər səsləndirib ki, Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həllində müsbət rol oynaya bilər. Elə bu fonda Rusiya Türkiyənin Dağlıq Qarabağ məsələsinin həllində, o cümlədən, regionda normal qarşılıqlı istisadi münasibətlərin bərqərar olunmasını təmin etməklə, prosesdə müsbət rol oynaya biləcəyini vacib faktor kimi hər zaman nəzərə aldığını bəyan edir. Lakin Krem onu da etiraf edir ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması üçün Dağlıq Qarabağ münaqişəsinin həlli açar rolunu oynayır. Məhz bu durumda Rusiyanın Qarabağ məsələsi üzərində Türkiyə ilə razılığa gələ bilmə ehtimalı yüksək qiymətləndirilir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyanın Gürcüstanda erməni diasporu ilə şok qızışdırıcı söhbəti - "Türkiyə Batumu alacaq"...

**Gürcüstanda səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan heç bir diplomatik etiket normalarına sığmayan tərzdə Türkiyənin arxasınca danışıb. O qeyd edib ki, Gürcüstan Türkiyədən ehtiyatlı olmalıdır: "Həmin ölkənin bütün qonşuları ilə problemi var. Kipr, Yunanıstan, Suriya, İraqı bura aid edə bilərik".**



## *Samir Adıgözəlli: "Türkiyənin özü Ermənistan tərəfindən əsassız iddialara məruz qalır"*

Paşinyan qeyd edib ki, Türkiyənin Gürcüstana da ərazi iddiası var: "Türkiyə digər qonşuları ilə problemi yoluna qoyandan sonra Batumini Gürcüstandan tələb edə bilər".

Erməni mediası bu xüsusda qeyd edir ki, Batumi 1921-ci ildə Qars müqaviləsi ilə Naxçıvanın statusu müəyyən ediləndən sonra Gürcüstana verilib. Paşinyanın gündəmə gətirdiyi bu sərsəm ideyanı bir az da genişləndirən erməni mediası Batumi iddiasının real ola biləcəyini əsaslandırmağa çalışır. Paşinyanın bu davranışını necə dəyərləndirmək olar?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, N.Paşinyan dövlət rəhbərinə yaraşmayan tərzdə davranışları ilə hamını təəccübləndirməkdə davam edir: "Bu şəxs bir daha sübut edir ki, dövlət adamı deyil. Onun təsadüf nəticəsində meydandan hakimiyyətə gəldiyi, siyasi cəhətdən diletant olduğu özünü çox aydın şəkildə göstərir. Paşinyan səfər etdiyi ölkələrdə olan erməni diaspor nümayəndələri ilə görüşməyə üstünlük verir. Biz şahidi oluruq ki, həmin görüşlərin əksəriyyətində o, populist çıxışlar və addımlar atır. Bunun da ölkələrdə yaşayan ermənilərə zərrə qədər də xeyri olmur, əksinə, ziyanı dəyir. Ötən il İrana etdiyi səfər zamanı oradakı ermənilərlə görüşdü və tədbirin keçirildiyi zalda belə şüar asıldı ki, "Qarabağ Ermənistandır". Azərbaycan bununla bağlı İrana etiraz etdi. Məsələ siyasi qalmaqal həddinə çatdı. Bizim ölkənin ictimaiyyətinin də həmin məsələyə sərt təpkisi oldu. İran rəsmiləri məcbur qalıb Paşinyanın sərsəm hərəkətlərini cavablandırmağa məcbur qaldılar.

Paşinyanın Gürcüstanda Türkiyə ilə bağlı dedikləri də heç bir diplomatik etiket normalarına sığmır. Çünki bir ölkənin rəhbəri rəsmi səfər etdiyi digər ölkədə dövlətlərarası münasibətləri qızışdırmaqla məşğul olursa, demək, cavabı verilməlidir.

Bu, qanunla da qadağandır. Paşinyan faktiki olaraq çox kobud tərzdə Türkiyə ilə Gürcüstanın münasibətlərini korlamağa, aralarında qalmaqal yaratmağa can atır. Hesab edirəm ki, bununla bağlı həm Türkiyənin, həm də Gürcüstanın rəsmi dairələri etirazlarını bildirməlidirlər. Türkiyənin hazırda heç bir ölkəyə qarşı ərazi iddiası yoxdur. Əksinə, Türkiyənin özü Ermənistan tərəfindən əsassız iddialara məruz qalır".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-da illik məşhur mükafatı almış 12 dünya qadınından biri - Şəhla Hümbətova...

**Martın 4-də ABŞ-ın Dövlət katibi Mayk Pompeo Dövlət Departamentində İllik Beynəlxalq Cəsarətli Qadınlar mükafatını təqdim edib. Bu il mükafat dünyadan 12 qeyri-adi qadına verilib.**



Mükafata layiq görülənlər sırasında 2013-cü ildən Azərbaycanda vəkil kimi fəaliyyət göstərən Şəhla Hümbətova da var. Martın 4-də mükafatlandırma mərasimində birinci ledi Melania Tramp çıxış edib.

Mükafat artıq 14-cü ildir verilir. Məqsəd dünyada sülh, ədalət, insan haqları, gender bərabərliyi, qadınlara səlahiyyət verilməsi üzrə müstəsna cəsarət və liderlik göstərən, bunu adətən böyük şəxsi risq və qurban verərək edən qadınları tanımaqdır.

2007-ci ilin martından bəri Dövlət Departamenti 73 ölkədən 134 qadını bu mükafata layiq görüb. Builki təqdimatdan sonra laureatların sayı 146-ya çatacaq.

Bu il Beynəlxalq Cəsarətli Qadın mükafatına layiq görülənlər sırasında Əfqanıstanda keçmiş mer Zarifa Qafari, Ermənistandan jurnalist Lüsi Koçaryan, Boliviyadan jurnalist Ksimena Galarza və digərləri var.

Qeyd edək ki, mükafata layiq görülən azərbaycanlı xanım ölkəmizdə çox da populyar deyil. Hətta həmkarları arasında onu az sayda adam tanıyır. Şəhla Hümbətovanın adı bir müddət əvvəl təmsil olunduğu Vəkillər Kollegiyası ilə qalmaqalda daha çox hallandı. Təsadüfi deyil ki, məhz buna görə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırovun mükafatlanmaya fərqli reaksiyası müşahidə edilib. A.Bağırov keçmiş vəkil Ş.Hümbətovanın ABŞ-da yüksək mükafat almasına reaksiyanı sosial şəbəkələr üzərindən verib. O özünün "Facebook" hesabında paylaşım edərək "Məhkəməyə bilə-bilə saxta sübutlar təqdim edənlər ABŞ səfirliyinə müraciət etsinlər, mükafat vermək üçün siyahıya alırlar" deyə qeyd edib. A.Bağırov bunun ardınca isə Cinayət Məcəlləsinin 294-cü (Sübutları saxtalaşdırma) maddəsini paylaşıb.

Araşdırdıqda məlum olur ki, Ş.Hümbətova ötən ilin noyabr ayında Rəyasət Heyətinin qərarı ilə Vəkillər Kollegiyası üzvlüyündən çıxarılıb. Bundan sonra VK Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət edərək Ş.Hümbətovanın məhkəməyə saxta qəbz təqdim etdiyini bildirib və bununla bağlı araşdırma aparılmasını istəyib.

Keçmiş vəkil mükafata layiq görülməsilə bağlı xarici mediaya bunları deyib: "Bu səhər həyəcanlı idim, mükafatı alana qədər... Ümumiyyətlə, mən bu mükafat barədə əvvəllər o qədər də məlumatlı deyildim. Layiq görüldüyümü eşidəndə bu mənim üçün çox surpriz oldu. Və sonra təbii ki, daha çox araşdıranda gördüm ki, olduqca mötəbər mükafat imiş. Bu isə məni daha artıq həyəcanlandırdı".

Şəhla xanım müsahibəsində A.Bağırovun ona yönəlik replikasını da ironik tərzdə cavablandırıb: "Mənim bu yerə gəlib çıxmağımda deməliyəm ki, A.Bağırovun çox böyük töhfəsi var. Bunun üçün, əslində, ona təşəkkür etməliyəm. Ona görə ki, vəkilliyi hazırkı duruma gətirməkdə onun müstəsna rolu var. Belə ki, bu gün bu mükafatı mən nəyə görə alıramsa, A.Bağırov məni məhz ona görə cəzalandırıb. Yəni ki, insan hüquqları uğrunda mübarizə üçün Azərbaycanda cəzalandırırlar, demokratik ölkələrdə isə mükafatlandırırlar. Ona görə A.Bağırovun adı çəkilir. Təsəvvür edin, eyni fəaliyyətə görə bir ölkədə cəzalandırılırsan, digər ölkədə isə ən yüksək səviyyədə mükafatlandırılırsan".

Ş.Hümbətovanın vəkillik fəaliyyətini araşdırdıqda məlum olur ki, o daha çox siyasi məzmunlu və səs-küylü işlərdə vəkillik edib. Bura bloqçu Mehman Hüseynovun prosesini , "Gəncə işi" ilə bağlı məhkəmələrin gedişini aid edə bilərik. O, həmçinin, LGBT kimi tanınan cinsi azlıqların da müdafiəsində vəkil kimi iştirak edib. Doğrudan da öz ölkəsinin qanunları ilə cəzalandırılaraq, vəkillik fəaliyyətindən uzaqlaşdırılan bir xanıma ABŞ-da mötəbər bir mükafatın verilməsi maraqlı görünməyə bilməz.

***Məhəmmədəli QƏRİBLİ***

# Neftçalanın o icra başçısı kimi başçılar hələ də var, onların hər biri araşdırılacaq - Prezident mesajı...

**Prezident İlham Əliyev Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.**

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:

**Sizin vəzifəniz - vətəndaşla bir yerdə olmaq, rayona investisiya gətirmək…**

- Mən sizi - birinizi Neftçala, birinizi də İsmayıllı rayonuna icra başçısı vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadımı doğruldacaqsınız və elə işləyəcəksiniz ki, həm vətəndaşlar sizdən razı olsunlar, həm də mən sizin işinizdən razı olum. Buna nail olmaq üçün, sadəcə olaraq, mənim tapşırıqlarımı yerinə yetirmək lazımdır. Bu tapşırıqlar da çox sadədir - vətəndaşlarla bir yerdə olmaq, daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək. Əgər siz bu tapşırıqlarımı layiqincə yerinə yetirsəniz, həm dövlət sizin işinizdən razı olacaq, həm də vətəndaşlar.

İsmayıllı və Neftçala rayonlarının sosial-iqtisadi inkişafı üçün bir çox layihələr icra edilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmışdır. Hazırda dördüncü proqram icra olunmaqdadır və əminəm ki, 2023-cü ilə qədər rayonların infrastruktur və sosial problemləri tamamilə öz həllini tapacaq. Həm qazlaşdırma, həm elektrik enerjisinin təchizatı, həm də kənd yollarının çəkilişi, içməli su layihələrinin həyata keçirilməsi ilə bağlı müvafiq göstərişlər verilmişdir və bir çox layihələr icra edilib. Bildiyiniz kimi, bu layihələr mərkəzi icra orqanları tərəfindən dövlət investisiya proqramı çərçivəsində icra edilir. Eyni zamanda, sosial obyektlərin tikintisi, təmiri də mərkəzi icra orqanları tərəfindən həyata keçirilən layihələrdir.

Sizin isə işiniz əsasən rayonda mövcud olan potensialı səfərbər edib, həm iqtisadi artımı təmin etmək, iş yerlərinin yaradılması ilə bağlı əməli addımlar atmaq və rəhbərlik edəcəyiniz rayonlara sərmayənin gətirilməsinə nail olmaqdır. Həm xarici investorları, həm də yerli investorları cəlb etmək üçün hər bir rayonun başçısı fəal işləməlidir. Bu tapşırıqları mən əvvəllər də vermişəm. Bəzi rayonlarda bu sahədə yaxşı nəticələr var, bəzi rayonlarda investisiya qoyuluşu zəifdir. Bunun obyektiv səbəbləri də ola bilər. Rayonların potensialı eyni deyil, amma buna baxmayaraq, hesab edirəm ki, Azərbaycanın müasir infrastruktur potensialını nəzərə alaraq hər bir rayon investorlar üçün cəlbedici ola bilər. Sadəcə olaraq, yerli icra orqanlarının rəhbərləri oturub bu investisiyaları gözləməməlidirlər. Özləri fəal olmalıdırlar, özləri investorları tapmalıdırlar, onları inandırmalıdırlar və cəlb etməlidirlər. Bəzi hallarda bəzi rayonlarda investor vəsait qoymaq istəyir, amma əfsuslar olsun ki, onun qarşısında süni əngəllər törədilir. Yaxud da ki, yerli icra orqanları ona qarşı əsassız və qanunsuz tələblər irəli sürürlər. Ona görə bu hallara qarşı çox ciddi mübarizə aparılmalıdır. Rayonlarda həm ictimai-siyasi abhava sağlam olmalıdır, ictimai münasibətlər sağlam zəmində qurulmalıdır və həm də xalqı narahat edən problemlər həll edilməlidir. O problemləri ki, müəyyən səbəblərə görə siz özünüz həll edə bilmirsiniz, gərək mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq nazirliklərə təkliflər verəsiniz və fəal olasınız.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır. Bu siyasət şüurlu siyasətdir və bundan sonra da davam etdiriləcək. Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, heç kimin heç bir xüsusi imtiyazları yoxdur, heç kimin keçmiş xidmətləri nəzərə alınmayacaq. Hər kəs keçmiş xidmətlərə görə dövlətdən layiqli qiymət alıbdır. Bundan sonra əgər kimsə dövlət işində, xüsusilə icra başçısı vəzifəsində işləmək istəyirsə, bax, bu prinsiplər əsas olmalıdır.

Əfsuslar olsun ki, hələ də bunu dərk etməyən insanlar var. Neftçala rayonunda aparılmış xüsusi əməliyyat onu bir daha göstərdi. Xalqın gözü önündə bu biabırçı mənzərə bir daha göstərdi ki, əfsuslar olsun, bizim bəzi yüksək rənqlı məmurlar nəinki xalqın, dövlətin etimadını doğru, sadəcə olaraq, bəzi məqamları işıqlandırır. Ancaq Neftçala rayonunda rüşvətxorluq və korrupsiya sistem xarakter daşıyırdı, sistemli əsasda həll olunurdu və demək olar ki, rüşvətxorluq və korrupsiya bütün qurumları sarsıtmışdı.

**Rayon Xəstəxanasının baş həkiminin bu qədər varidatı hardandır?**

Təsəvvür edin, rayonun ən zəngin insanlarından biri Mərkəzi Rayon Xəstəxanasının baş həkimidir. Onun varidatı haqqında indi hüquq mühafizə orqanları məlumat əldə ediblər. Bu adam nəyin hesabına varlanıb? Bu biznesmendir? Yox. Bu ixtiraçıdır? Yox. Buna böyük miras qalıb? Yox. Nəyin hesabına? Xəstələrin boğazından kəsilən pullar hesabına. Yazıq xəstələr məcbur olub bu tamahkar insanlara pul veriblər ki, öz sağlamlıqlarını təmin etsinlər. Ona görə bu yolla gedən hər bir adam bilməlidir ki, bunun axırı olacaq.

Korrupsiyaya və rüşvətxorluğa qarşı dözümlülük sıfır səviyyəsində olmalıdır. Neftçalanın keçmiş icra başçısının biabırçı hərəkətləri xalqda nifrət hissi oyadır. Kabinetdə müxtəlif adamlardan rüşvətin alınması biabırçı mənzərədir. Bir də ki, o adamın iş otağındakı hərəkətləri, onun əynindəki geyim, cinsdə, ev paltarında adam iş otağında ola bilər? Rəhbər iş otağında bu geyimdə hansı nümunə göstərir bütün məmurlara? Ona görə bu biabırçı kadrlar, əlbəttə, onu göstərir ki, bu insanın və



buna oxşar insanların mənəvi deqradasiyası nə dərəcədədir. İndi operativ məlumat toplanılıb və toplanılır. Əlbəttə ki, mən istintaqa qarışmaq istəmirəm, istintaq hər şeyi özü göstərəcək. Son sözü məhkəmə deyəcək. Ancaq artıq aşkar olunan faktlar onu göstərir ki, Mərkəzi Rayon Xəstəxanasında bütün şöbələr baş həkimə aylıq haqq ödəyir. Məktəblərdə rüşvətxorluq kütləvi xarakter alır. Məktəb direktorlarından haqq tələb olunur, bələdiyyələrdən rüşvət tələb olunur, ictimai əsaslarla ödənişli iş yerlərinə insanlar cəlb edilmir, onların ödəniş kartları götürülür və icra başçısı tərəfindən o pullar çəkilir. Eyni zamanda, dövlətdən maaş alan və ödənişli ictimai yerlərdə işləməli olan həmin vətəndaşlar icra başçısına aid bir çox kommersiya obyektlərində və təsərrüfatlarda qul kimi işlədilir.

**Neftçala işi hər kəsə dərs olmalıdır**

Yəni bir daha demək istəyirəm ki, bu, mənəvi deqradasiyanın pik həddidir və bu, hər kəsə dərs olmalıdır. İstisna olunmur ki, onun kimi icra başçıları və digər mərkəzi və yerli icra orqanlarının rəhbərləri ona oxşar hərəkətlər edir. Onların hər biri araşdırılacaq. Heç kim toxunulmaz deyil və bu hadisələr bir daha onu göstərir.

Siz gənc kadrlarsınız, sizin tərcümeyi-halınız mənə təqdim olunub.

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Siz bu günə qədər heç bir qanunazidd əmələ əl atmamısınız, gəncsiniz, birinizin 40 yaşı, digərinizin 30 yaşı var, gənc nəslin nümayəndələrisiniz. Sizin təyinatınız bizim kadr siyasətimizi göstərir. Onu göstərir ki, bəyan etdiyimiz prinsiplər həyatda öz əksini tapır. Biz gənclərə yol açmalıyıq, meydan verməliyik, yeni təfəkkürlü insanlar önəmli vəzifələrə təyin edilməlidirlər. Biz köhnə psixologiyanı bu yollarla qıra bilərik. Cəmiyyətimizi sarsıdan xoşagəlməz hallara ancaq bu yollarla son qoya bilərik. Ona görə rəhbərlik edəcəyiniz rayonlarda işlər sizin fəaliyyətinizdən asılı olacaq. Əgər sizə göstərilən böyük etimadı bütövlükdə doğrultmasanız bu, eyni zamanda, cəmiyyətdə də məyusluq yaradacaq. Deyəcəklər ki, yeni insanlar gəldi, gənclərdir, yeni təfəkkürlə, yeni yanaşma ilə, amma eyni yolla gedirlər. Ona görə bir daha sizə ciddi tapşırıram ki, əsas vəzifəniz bütün işləri düzgün qurmaq və xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaqdır.

Eyni zamanda, ilk növbədə, rayonlarda vəziyyət təhlil edilməlidir. İnsanları narahat edən məsələlər ciddi araşdırılmalıdır və onların həlli yolları ilə bağlı təkliflər hazırlanmalıdır, yaxud da ki, bu məsələlər yerində öz həllini tapmalıdır.

Əgər işlər düzgün qurularsa, rayonların potensialı kifayət qədər böyük ola bilər. Neftçala rayonunda sənaye zonası yaradılıb. Deyə bilərəm ki, rayonların arasında birinci sənaye zonası Sumqayıtdan sonra Neftçala şəhərində yaradılıb və artıq fəaliyyətə başlayıb. Azərbaycanda avtomobillər Neftçalada istehsal olunur və bu sənaye zonasının gələcək inkişafı ilə bağlı konkret təkliflər verilməlidir. Hesab edirəm ki, Neftçalada balıqçılıq sənayesinin çox böyük perspektivləri var. Baxmayaraq biz Xəzər dənizinin sahillərində yerləşirik, əfsuslar olsun ki, özümüzü balıqla təmin edə bilmirik, idxaldan asılıyıq. Eyni zamanda, balıqçılıq təsərrüfatlarının yaradılması geniş vüsət almayıb. Mövcud olan təsərrüfatların böyük hissəsi çox primitiv səviyyədədir. Ona görə balıqçılıq həm bizim qeyri-neft sektorumuzun önəmli sahəsi ola bilər, eyni zamanda, ixracyönümlü sahə ola bilər və olmalıdır. Ona görə investorları bu sahəyə cəlb etmək üçün mütləq işlər aparılmalıdır.

**Bu günə qədər rayonda turizmlə bağlı heç bir iş görülməyib**

Eyni zamanda, hesab edirəm ki, Neftçala rayonunun turizm potensialı da çox perspektivli ola bilər. Bu günə qədər rayonda turizmlə bağlı demək olar ki, heç bir iş görülməyib. Halbuki Bakıya o qədər də uzaq deyil, yaxşı yollar da çəkilir. Hesab edirəm ki, orada da turizm infrastrukturunun yaradılmasına ehtiyac var. Əlbəttə ki, kənd təsərrüfatı Azərbaycanın hər bir rayonunun önəmli sahəsidir, əməktutumlu sahədir. Bu sahəyə də diqqət yetirilməlidir.

O ki qaldı, İsmayıllı rayonuna, hesab edirəm ki, İsmayıllı rayonunun əsas inkişaf potensialı turizm və kənd təsərrüfatı ilə bağlıdır. İsmayıllı rayonunun çox mənzərəli, səfalı yerləri, zəngin təbiəti vardır. Ona görə bu imkanlardan tam şəkildə istifadə olunmalıdır. Dövlət isə öz tərəfindən bundan sonra da infrastruktur layihələrinin icrası ilə bağlı önəmli addımlar atacaq. Necə ki, bu yaxınlarda Lahıc qəsəbəsinə yeni yolun çəkilişi təmin edilib. Bu da əvvəlki yola nisbətən xeyli təhlükəsiz yoldur və məsafə baxımından Bakıdan daha qısa yoldur və Şamaxı rayonundan düz Lahıc kəndinə gəlir. Yolun açılışını mən şəxsən etmişəm. Özüm sükan arxasında bu yolu getmişəm və artıq turistlər üçün Lahıca gəlmək imkanı daha da genişdir. Eyni zamanda, Lahıc qəsəbəsinin qazlaşdırılması, yeni məktəbin tikintisi həll olunub. Bizim digər tarixi kəndimiz olan Basqalın tarixi irsinin qorunması ilə bağlı mənim tərəfimdən müvafiq Sərəncam imzalanıb. Bu da bu kəndin tarixinə, keçmişinə və zəngin mədəni irsinə Prezident tərəfindən verilən yüksək qiymətdir. Çünki çox nadir hallarda Prezident tərəfindən hansısa kəndin inkişafı ilə bağlı Sərəncam imzalanır. Düzdür, bu məsələlər daim diqqət mərkəzindədir. Hər bir kənd mənim üçün doğmadır və əzizdir, amma Azərbaycanın müxtəlif bölgələrində tarixi yaşayış yerləri vardır ki, onlara dövlət tərəfindən xüsusi qayğı göstərilməlidir. Basqal kəndinin gələcək inkişafı ilə bağlı amillər tarixi keçmişimizi qorumaq və turizm imkanlarımızı genişləndirməkdir.

Bir sözlə, hesab edirəm ki, kənd təsərrüfatı və emal sənayesi sahəsində böyük imkanlar var və siz çalışmalısınız ki, bu rayonlarda gedən işlər yaxın zamanlarda öz nəticəsini versin. Sizin fəaliyyətinizdə bax, bu amillər əsas rol oynayacaq - vətəndaşların məmnunluğu, rayonların inkişafı, iqtisadi-sosial göstəricilər və investisiyaların cəlb edilməsi.

Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

# Rusiya azərbaycanlılarının şikəst "AzerRos"u - Söyün Sadıqov, Abbas Abbasov, Mehriban Sadıqova və daha kimlər...

## **Şakir Habiloğlu:** *"Seçiləcək yeni sədr sərt addımlar atmasa, onu da sələflərinin taleyi gözləyəcək"*

**Məlum olduğu kimi, bir müddət əvvəl Rusiya Azərbaycanlıları Federal Milli-Mədəni Muxtariyyətinin ("AzerRos" FMMM) rəhbəri Mehriban Sadıqova Rusiyada yaşayan azərbaycanlıların təkidli tələblərindən sonra istefa verib.**



Rusiyada yaşayan Azərbaycan diasporunun nümayəndələrinin verdiyi məlumata görə, Mehriban Sadıqova qurumun çağırılan növbədənkənar toplantısında istefa verməyə məcbur olub. Təşkilatın üzvləri tələb ediblər ki, M.Sadıqova istefa verməsə, azərbaycanlılar təşkilatı kütləvi şəkildə tərk edəcəklər. Məlumata görə, Rusiyada, xüsusən Moskvada azərbaycanlıların birləşməsinə mane olduğu bildirilən M.Sadıqovanın istefası uzun müddətdir təşkilat üzvləri tərəfindən tələb edilirdi.Yeni sədrin seçilməsi üçün bu ilin aprelinə qurultay çağırılıb.

Bu təşkilat yarandığı gündən daxili intriqalarla məşğul olub. Azərbaycan diasporunun inkişafı ilə məşğul olmaq əvəzinə, məşğul olduqları təşkilat daxilindəki intriqalar qurumu daha da nüfuzdan salıb.

Bu təşkilat daha çox Rusiya hakimiyyəti ilə yaxın münasibətləri olan Söyün Sadıqovun nəzarətində olub. Bildirilir ki, M.Sadıqovanı da həmin təşkilata məhz S.Sadıqov gətirib. Onların soyadları eyni olsa da, qohum olmadıqları deyilir. Mediada yazılanlardan məlum olur ki, S.Sadıqovun "AzerRos"da rəhbərliyi dönəmində onun katibəsi işləyib. Sonra təşkilata Abbas Abbasov ayaq açmağa başladı. Varlığı ilə ölü sayılan qurum rəsmən Putinin yanında Millətlərarası Komitədə təmsil olunurdu. Həmin vaxtlar Sadıqovun yanında tanınmış və nüfuzlu heç kim olmadığı üçün, M.Sadıqova "AzerRos"un qurultaylarından birində S.Sadıqovun dəstəyilə vitse-prezident vəzifəsinə gətirildi. M.Sadıqovanın namizədliyi elan olunanda gərginlik yaşanıb. Bir sıra region diaspor liderləri - Yekaterinburq, Nijniy Novqorod, Sankt-Peterburq, Tver, İvanovo, Kaluqadan gəlmiş diaspor rəhbərləri iclas zalını nümayişkaranə tərk etmişdilər. Hətta "AzerRos"a qoşulmaq istəyən və iclasa bunun üçün gəlmiş bir qrup şəxs də narazılıq edib. O vaxt narazılarla danışıqları şəxsən Abbasov özü aparıb.

İki saatlıq fasilədən sonra iclas davam etdirilib. Federasiya Şurasının üzvləri M.Sadıqovanı Şuranın sədri postuna seçməyə razılaşıblar. Bundan sonra da təşkilat daxilində qalmaqallar səngiməyib. M.Sadıqovanın sədrliyi dönəmində verdiyi bir açıqlamaya diqqət edək: "Ağsaqqallar Şurasının sədri Abbas Abbasov "AzerRos" ətrafında baş verən hadisələri pisləyir. Bizim prezident Asif Məhərrəmov dekabr ayının sonunda öz ərizəsi ilə istefa verib. Ona görə də Abbas Abbasov qurultay keçirmək, qanuni yolla prezident seçilməsini istəyirdi. Təəssüflər olsun ki, şuranın bəzi üzvlərinin öz məqsədləri var. Məqsədlərindən başa düşmək olar ki, onlar bunu qəbul edirlər. Onlar konkret olaraq "AzerRos"u dağıtmaq istəyirlər. Əlbəttə, qanuni yolla qurultay olacaq və prezident, şuranın sədri seçiləcək. "AzerRos"un parçalanması üçün Tahir Hacıyev, Qalib Ağayev, Söyün Sadıqov, Mehriban Abdullayeva, Elçin İbrahimovdan ibarət təşkilat komitəsi yaradılıb. Onlar başqalarını aldadaraq ora yığıblar. "AzerRos"u parçalamaq istəyən əsasən onlardır. Onlar başa düşmürlər ki, etdikləri hərəkət bizim nizamnamənin əleyhinədir. Təbii ki, onlar bunu çox gözəl başa düşürlər. Əgər başa düşə-düşə hərəkət edirlərsə, bunu yalnız "AzerRos"u dağıtmaq cəhdi kimi qiymətləndirmək olar".

Onsuz da şikəst olan "AzerRos" M.Sadıqovanı istefaya göndərməklə indi də başsız qalıb. Qurumun gələcək taleyi necə müəyyənləşə bilər?

Rusdilli "Novoe vremya" qəzetinin baş redaktoru Şakir Habiloğlu qəzetimizə açıqlamasında bildirdi ki, sözügedən qurum federal səviyyədə Azərbaycanı təmsil edən yeganə təşkilatdır: "Bu təşkilatın sədri Rusiyanın siyasi həyatında hər zaman diqqət mərkəzində olur. Orada ali hakimiyyət səviyyəsində təmsilçilik haqqı olan millətlər birliyi fəaliyyət göstərir. Həmin təşkilatın sədri həm də Rusiya Prezidentinin milli azlıqlar üzrə nümayəndəsi sayılır. Razıyam ki, təşkilatın taleyi qalmaqallarla dolu olub.

Ona rəhbərlik etmiş heç bir şəxs Azərbaycanın real diasporunu öz ətrafında birləşdirə bilmədi. Aprel ayında qurumun qurultayı olacaq. Ümid edək ki, ora seçiləcək yeni sədr tam fərqli adam olacaq. Bu şəxs bizim daha çox soydaşımızın yaşadığı Rusiyada diaspor sahəsində əməli iş görməlidir. Bizim orada sıx birləşməyimizə ehtiyac var. Elə bir adam olmalıdır ki, həm Rusiyanın ictimai-siyasi həyatında fəal olsun, həm də lazımi anda Azərbaycanın maraqlarını müdafiə etsin. Bizim soydaşlarımız arasında bu parametrlərə cavab verənlər çoxdur. Tam təsdiqlənəndən sonra görəcəyik ki, iş görmək olar. Qurumun idarə heyəti tam dəyişilməlidir. Seçiləcək yeni sədr sərt addımlar atmasa, onu da sələflərinin taleyi gözləyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Aprel döyüşləri Ermənistanda vəziyyəti yenidən qarışdırmağa başlayıb

**2016-cı ilin məşhur aprel döyüşlərinin növbəti ildönümü ərəfəsində bu məsələ Ermənistanda yenidən gündəmin əsas mövzularından birinə çevrilib. Amma bu dəfə məsələnin siyasi çalarları da özünü qabarıq şəkildə büruzə verir. Məlum olduğu kimi, artıq bir ildir ki, Ermənistan parlamentində aprel döyüşlərini araşdıran istintaq komissiyası fəaliyyət göstərir.**

Bu bir il ərzində çoxlu sayda hərbçi, yüksək vəzifəli keçmiş və indiki rəsmilər komissiyaya dəvət olunub, komissiyanı maraqlandıran suallara cavab veriblər.

İndi yayılan məlumata görə, aprelin əvvəllərinə qədər Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanı komissiyaya çağırmaq, təbii olaraq qapalı müzakirə aparmaq planlaşdırılır. Diqqəti çəkən məqam budur ki, səlahiyyətlilər Serj Sarkisyanı məhz aprel ayının əvvəllərində istintaq komissiyasına çağırmağı planlaşdırırlar. Hesab edilir ki, döyüşlərin ildönümü ərəfəsində Sarksiyanın istinata çağırılması təsadüfi deyil və ilk növbədə ona psixoloji təzyiq göstərməyə hesablanıb.

Erməni mediası yazır ki, Sarksiyanla bağlı tarixin seçilmə göstərişi baş nazir Nikol Paşinyandan gəlib. Xatırladaq ki, əvvəlki iclaslardan birinə Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan çağırılıb. İşğal altında olan Qarabağda dislokasiya olunmuş qanunsuz "hərbi birləşmə"nin komandiri Levon Mnatsakanyanın dəvət olunması məsələsi də müzakirə olunur. Digər tərəfdən, istintaq komissiyası Ermənistan Silahlı Qüvvələrinin sabiq Baş Qərargah rəisi Yuri Xaçaturova "dindirilmə" bildirişi göndərib. Ermənistanda nəşr olunan "Past" qəzeti yazır ki, Paşinyan aprel döyüşlərinin istintaqı ilə özünə təhlükə saydığı "Qarabağ klanı"nı tam şəkildə sıradan çıxarmaq istəyir:"Hazırda bu klanın azadlıqda olan əsas təmsilçisi Ermənistanın keçmiş prezidenti Serj Sarkisyandır. Amma ona qarşı da Paşinyanın planları hazırdır, sabiq prezident 2016-cı ilin aprel müharibəsinin səbəblərini araşdıran parlament komissiyasında dindiriləcək". Nəşr sözügedən komissiyanın Nikol Paşinyan hökumətinin keçmiş siyasi elitanın nümayəndələrinə qarşı mübarizəsi məqsədilə qurulduğunu vurğulayır. Qeyd olunur ki, Paşinyanı 2016-cı il aprel ayında baş verən döyüşlərdə Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinə məğlubiyyətindən daha çox, keçmiş hakimiyyəti zərərsizləşdirmək cəhdi məşğul edir: "2016-cı ilin aprel müharibəsindəki məğlubiyyətin səbəblərini araşdıran parlament komissiyası 2019-cu ilin may ayında qurulub. Bununla birlikdə ictimaiyyətin bu komissiyanın fəaliyyətinə münasibəti birmənalı deyil. Cəmiyyət məğlubiyyətin əsl səbəblərini bilmək istəyir, lakin aradan keçən dörd il ərzində əsl səbəblər israrla gizlədilir.



Digər tərəfdən, komissiyanın fəaliyyətinin siyasi kontekstdə olduğuna inananlar çoxdur, bu müddət ərzində komissiya bir çox keçmiş rəsmiləri dindirməyə çağırıb və bu günlərdə çağırılacaq adlar da məlumdur. Artıq Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın da bu kontekstdə dindiriləcəyi bəlli olub. Sarkisyan fakt qarşısında qoyulacaq: erməni ordusu niyə Azərbaycana məğlub oldu? Bu faktlar əsasında Sarksiyanı həbsə göndərmək Paşinyan üçün daha asandır". Lakin diqqət həm də ona yönəlir ki, Sarksiyanın həbsi Rusiyanın Paşinyana qarşı daha sərt mövqe sərgiləməsi ilə nəticələnəcək. Çünki Rusiya Robert Köçəryanın ardınca digər adamı olan Serj Sarksiyanın da həbsə atılması ilə razılaşmaq istəmir.

Elə "Kommersant" qəzeti də yazır ki, indinin özündə də Robert Köçəryana qarşı açılan cinayət işi Rusiya-Ermənistan münasibətlərində əsas qıcıqlandırıcı məqamdır: "Robert Köçəryana münasibətdə açılan iş Ermənistanın daxili işi deyil. Moskva Rusiya prezidenti Vladimir Putinlə dostluq münasibətləri olan Köçəryanla bağlı prosesi diqqətlə izləyir". "Kommersant"ın Kremldəki etibarlı mənbələrindən biri Rusiya tərəfinin Köçəryana qarşı prosesi siyasi hesab etdiyini deyib. Mənbə Moskvanın bununla bağlı mövqeyini Ermənistan hökumətinə dəfələrlə çatdırdığını bildirib. Belə ki, o, yaxın gələcəkdə Köçəryan məsələsi həll edilməyəcəyi təqdirdə bunun Rusiya-Ermənistan ikitərəfli münasibətlərində aktual məsələyə çevriləcəyini söyləyib. Üstəlik o da vurğulanıb ki, Sarksiyanın belə vəziyyətdə həbsə atılması Moskvanı daha çox qəzəbləndirəcək.

Beləliklə, qeyd edilənlər göstərir ki, aprel döyüşlərinin növbəti ildönümü də Ermənistan üçün sakit məcrada keçməyəcək. Rusiyanın "Hərbi Sənaye Kuryer" qəzeti də yazır ki, indiki durumda Ermənistan mürəkkəb vəziyyətdədir.

**Bunun ardınca Moskva ilə münasibətlərin pisləşməsi isə İrəvanın durumunu daha da ağırlaşdıracaq:"O, qonşularından yalnız biriylə hansısa münasibətə malikdir. Bunun ardınca Rusiyanın qəzəbini üzərinə çəkmək İrəvanı daha çətin vəziyyətə sala bilər". Qəzet, həmçinin, 2016-cı ilin aprel döyüşləri zamanı Ermənistan ordusunun 14 T-72 tankı, Azərbaycanın isə 1 T-72 tankı və 1 Mi-24 helikopteri itirdiyini bildirib. 2017-ci ilin mayında isə Azərbaycanın İsrail istehsalı kamikadze PUA-lar vasitəsilə Ermənistanın "Osa" zenit raket kompleksini məhv etdiyi vurğulanıb.**

***Nahid SALAYEV***

# Paşinyandan daha bir gülməli hərəkət - Məsihin də "kadrları" ona xəyanət etmişdilər...

**Gürcüstandakı erməni icmasının nümayəndələri ilə görüşü zamanı Ermənistan Baş naziri Nikol Paşinyan özüylə İsa Məsih arasında paralellər aparıb. O özünü İsa Məsihlə eyniləşdirib. Belə ki, Paşinyan özünün kadr siyasəti barədə danışarkən səhvdən sığortalanmadığını söyləyib.**



O bunu belə əsaslandırmağa çalışıb: "Mən hakimiyyətimizdə, xüsusilə də hüquq-mühafizə orqanlarında olan və bəlkə də olacaq xəyanət və xainlər haqqında danışacağam. Bu mövzu barədə düşünəndə köməyimə Bibliya çatır. Hətta İsa Məsihin seçdiyi kadrlar arasında xainlər olub. Əgər hətta İsa Məsih kadr siyasətini xəyanət olmadan apara bilmirsə, o zaman hansısa baş nazir və ya konkret mənim belə siyasət apara biləcəyimi düşünmək təkəbbürlülük olardı".

Bu arada Paşinyanın özünü İsa Məsihlə eyniləşdirməsinə Ermənistanın məşhur "Qraparak" qəzeti ritorik sualla münasibət bildirib: "Maraqlıdır, bəs İsa Məsih və Bibliya naşı hakimiyyət və pis idarəetmə ilə bağlı nə deyirlər?".

Göründüyü kimi, Paşinyan növbəti populist açıqlaması ilə bir daha özünü ictimaiyyət qarşısında gülünc duruma salıb. Sanki hakimiyyətə gələndən çox ciddi islahatlar həyata keçirib. Hansı ki, ötən qısa müddət ərzində Paşinyanın bacarıqsız bir siyasətçi olması reallığı ortaya çıxdı. Məlum oldu ki, onun səsləndirdiyi vədlər real əsaslara söykənmir. Çünki Paşinyan idarəçilik təcrübəsinə malik olmayan personadır.

### *Məhəmməd Əsədullazadə: "Belə görünür ki, Baş nazirin psixi durumu yerində deyil"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistan Baş naziri N.Paşinyan ölkəsində küçə etirazları nəticəsində hakimiyyətə gəldikdən sonra onun bir sıra davranışlarında psixi problemlərin olduğu meydana çıxdı: "Onun özünə vurğunluğu, populist vədləri və Ermənistan əhalisinə reallaşdırılması mümkün olmayan vədlər verməsi psixoloqların bu nəticəyə gəlməsinə səbəb olub. Onun Gürcüstana səfərində erməni icması qarşısında dedikləri bir daha bunu təsdiq edir. Adam özünü İsa peyğəmbərlə müqayisə edərək Ermənistan üçün əvəzedilməz olduğunu göstərir.

*"Paşinyan bu sayaq açıqlamaları ilə, bütövlükdə, erməni kilsəsinə demək istəyir ki, katolikos da mənəm"*

Belə görünür ki, Baş nazirin psixi durumu yerində deyil. Hesab edirəm ki, o belə bir davranışla ölkəsində daha çox gülüş obyekti olacaq. Məhz erməni xalqı onun nə deməyində maraqlı deyil. Onun verdiyi sözlərin, əməlinin reallaşdırılmasında maraqlıdır. İki ildir Paşinyan hakimiyyəti qəsb edib. **Ötən iki il ərzində Ermənistanda müsbətə doğru irəliləyişlər olmayıb. Ölkə, faktiki olaraq, yerində sayır. İndi erməniləri o düşündürür ki, inqilab bizə nə verdi? Hələ ki, onlar Pşainyanın bundan sonrakı fəaliyyətindən çox narazı olacaqlar. Bu baxımdan hesab edirəm ki, növbəti mərhələdə ölkədə ona qarşı etirazlar baş qaldıracaq. Burada Rusiya katalizator rolu oynaya bilər. Paşinyan bu sayaq açıqlamaları ilə, bütövlükdə, erməni kilsəsinə demək istəyir ki, katolikos da mənəm".**

***Vidadi ORDAHALLI***

# Bəşər Əsədin son bəyanatlarına Ərdoğanın reaksiyası maraqlı olacaq - "Sizə nə düşmənçilik etmişəm"...

**Suriya Prezidenti Bəşər Əsəd Türkiyəyə yönəlik yalvarış tonunda bir müraciət edib. O, "Rossiya 24" telekanalına müsahibəsində bildirib ki, Suriya Türkiyəyə qarşı heç bir addım atmayıb: "Suriyanın Türkiyəyə qarşı hansı böyük və ya kiçik addımından söhbət gedir? Belə bir şey yoxdur.**

Suriya-Türkiyə nikahları var, ailələr var, həyati əhəmiyyətə malik ümumi maraqlar var. Bu mədəniyyətlərin qarşılıqlı əlaqəsi tarixə bağlıdır. Ona görə də bizimlə onlar arasında ciddi fikir ayrılıqlarının olmasını demək məntiqsizlikdir".

Göründüyü kimi, Əsəd, faktiki olaraq, Ərdoğandan imdad diləyir. Onun bu müraciətinə Ərdoğanın cavabı necə olacaq?

Qeyd edək ki, biz materialı hazırlayan ana qədər Rəcəb Tayyib Ərdoğan Əsədin müraciətinə cavab verməmişdi.

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, Ərdoğanın konkret nə cavab verəcəyini proqnozlaşdırmaq olmaz: "Ancaq Ərdoğanın belə məzmunda cavab vermək haqqı var və bunu gözləmək olar. Deyə bilər ki, Əsəd səmimi görünmür. Bu səmimiyyəti Türkiyəyə qarşı planlar hazırlananda nümayiş etdirə bilərdi. Ancaq etmədi. Türkiyə isə Əsədin dediyi telləri, bağları qorumağa çalışdı. Milyonlarla suriyalıya vətən kimi qucaq açdı. Suriya məsələsi Türkiyənin birbaşa milli təhlükəsizliyi ilə bağlıdır. Türkiyənin də atdığı addımların kökündə bu amil durur. Bu mənada, Türkiyənin geri addım atmayacağı başadüşüləndir. Türkiyənin fevralın 27-dən başlatdığı "Bahar qalxanı" əməliyyatı Əsəd rejiminə böyük zərbə vurub. Suriya ordusu çox ciddi itkilər verib. Əsədi bu tonu seçməyə vadar edən səbəb budur. Bu gün Suriyanın Türkiyə ilə başa-baş hərbi əməliyyat aparmaq potensialı yoxdur. Bəlli oldu ki, Əsəd bu məsələdə aldadıldı. Hazırda Əsədə dəstək verən qüvvələr Türkiyə ilə üz-üzə gəlmək istəmirlər.

Tehran Əsədə lazımi dəstəyi verə bilmir, çünki bu gün İranın özündə də kifayət qədər problem var. İran özü həm koronavirus, həm də siyasi proseslər səbəbilə diqqətini Suriyadan çəkib. Rusiyanın da orada müharibə aparmaq niyyətinin olmadığı üzə çıxır. Belə olan təqdirdə, Ərdoğan Əsədə eyni məzmunda qarşılıq verməyəcək. Ya cavab verməyəcək, cavab versə də, Əsədin etdiklərini ona xatırladıb, qeyri-səmimiliyini nəzərinə çatdıracaq. Düşünürəm ki, Ərdoğandan bu mövqeni gözləməyə dəyər. Çünki Əsəd Türkiyəyə başqalarının əlilə zərbə vurdu. Türkiyə çoxlu sayda şəhid verdi. İndi isə Əsəd meydanda tək qalıb. Bu "səmimiyyətə" inanmağa dəyməz. Bunu düşünən lider belə haqsızlıqları etməzdi".

### ***Elşən Mustafayev:*** *"Ya cavab verməyəcək, cavab versə də, Əsədin etdiklərini ona xatırladıb, qeyri-səmimiliyini nəzərinə çatdıracaq"*



***Məhəmmədəli QƏRİBLİ***

**Dünya enerji bazarında neft hasilatçıları üçün yaranan yeni böhranlı vəziyyət, görünür, bu dəfə də Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn birliyin fəaliyyəti nəticəsində aradan qalxacaq. Söhbət OPEC-ə üzv və kartelə üzv olmayan ölkələrin yaratdığı OPEC+ formatından gedir.**

# Azərbaycanın təşəbbüsü ilə ərsəyə gəlmiş format dünya neft hasilatçılarını yenə xilas edəcək

Hazırda neftin sürətlə dəyər itirməsi OPEC+ ölkələrini ciddi şəkildə narahat edir. Təkcə keçən həftə dünya birjalarında "qara qızıl"ın qiymətində 16 faiz ucuzlaşma qeydə alınıb. Bu həftə ərzində də neftin qiymətində hansısa bahalaşma qeydə alınmayıb. Bunlara səbəb müxtəlif ölkələrdə yayılan koronavirusun qlobal iqtisadi artıma, həmçinin neft tələbatına mənfi təsir etməsidir. Enerji bazarı isə martın 6-da OPEC-ə üzv və kartelə üzv olmayan ölkələrin Vyanadakı toplantısına fokuslanıb. İclasda neft hasilatının azaldılmasına dair mövcud saziş üzrə istehsal kvotalarına dəyişikliyin edilməsi gözlənir. Çünki əks təqdirdə hasilatçıların zərəri artmaqda davam edəcək. Qeyd edək ki, dünyanın əsas neft ixrac edən ölkələri yeni koronavirusun yayılması nəticəsində neftin ucuzlaşması səbəbindən 10 milyard dollara yaxın ziyana uğrayıblar. Beynəlxalq Valyuta Fondunun icraçı direktoru Kristalina Georgiyeva bildirib ki, 2020-ci ildə dünya iqtisadi artımının mühüm amili olaraq həm də kononavirusla bağlı vəziyyət mühüm əhəmiyyət daşıyır:"Bütün hallarda, 2020-ci ildə dünya iqtisadi artımı ötən ildəki səviyyədən aşağı olacaq. Nə qədər aşağı olacağı, bunun nə qədər müddət ərzində davam edəcəyi isə koronavirus epidemiyasından, bununla bağlı görülən tədbirlərin keyfiyyəti, çevikliyi, səmərəsindən asılı olacaq. Hazırda baş verənlərdən enerji bazarı da təsirlənir və neftin ucuzlaşmasını da məhz bu şərtləndirir".

Belə vəziyyətdə neft qiymətlərini sabitləşdirmək üçün OPEC+ ölkələrinin hasilatı yenidən azaltması vacib sayılır. Elə OPEC-ə üzv və üzv olmayan ölkələrin Birgə Texniki Komitəsinin ekspertləri də OPEC+ dövlətlərini neft hasilatını daha da azaltmağa çağırıb. Koronavirusun dünya iqtisadiyyatına artan təsirini qeyd edən OPEC+ mütəxəssisləri neft nazirlərinə hasilatın daha da azaldılmasını tövsiyə ediblər. Ekspertlər ikinci rüb ərzində neft hasilatının gündəlik 600 min və ya 1 milyon barrel arasında azaldılmasını təklif edib.

Qeyd edək ki, martın 6 da Vyanada OPEC Nazirlər Şurasının 178-ci iclası, eləcə də OPEC+ ölkələrinin nazirlərinin 8-ci görüşü keçiriləcək. Məhz burada hasilatın azalması istiqamətində növbəti addım atılması gözlənilir. Xatırladaq ki, 2019-cu il dekabrın 6-da OPEC və qeyri-OPEC nazirlərinin 7-ci görüşündə OPEC + üzrə gündəlik neft hasilatının daha 500 min barrel azaldılması barədə qərar qəbul edilib. Yeni "Əməkdaşlıq Bəyannaməsi"nə uyğun olaraq, Azərbaycanın öhdəliyi 27 min barrel müəyyən edilib. Bu ilin yanvarından etibarən Azərbaycan gündəlik neft hasilatını 769 min barrel həcmində saxlayır. Amma OPEC və qeyri-OPEC nazirlərinin yeni görüşündən sonra Azərbaycanın neft hasilatını bir qədər də azaltması gözlənilir. Çünki digər ölkələrin də eyni addıma getməsi proqnozlaşdırılır. Ən azı ona görə ki, hazırda hasilatın azaldılması neftin qiymət problemini həll edə bilər. İndilikdə isə proqnozlar budur ki, koronavirus problemi davam etdikcə neftə tələb aşağı düşəcək. ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs"ın analitikləri bildirir ki, 2020-ci ildə gündəlik qlobal xam neft tələbatı 150 min barrel azalacaq. Analitiklər əvvəlki proqnozlarında cari ildə sutkalıq neft tələbatının 550 min barrel artacağını gözləyirdi. Amma koronavirus vəziyyəti dəyişib. İndiki halda koronavirusun neft qiymətinə yaratdığı təhdid məhz hasilatın aşağı salınması ilə aradan qaldırıla bilər.

Digər tərəfdən, yaranmış vəziyyətdə hasilatçı ölkələr aşağı qiymət üzündən daha bir problemlə üzləşib. Söhbət onların milli valyutasının dəyərdən düşməsindən gedir. Rusiya, İran, Venesuela, bir sıra ərəb ölkələrində bu proses özünü artıq qabarıq büruzə verir. Azərbaycanda isə vəziyyət fərqlidir. Əksər neft ixrac edən ölkələrdən fərqli olaraq, milli valyutanın rəsmi məzənnəsi hələ də 1 dolların 1,7 manata nisbətində sabit qalıb. Ekspertələrə görə, hətta neftin qiymətinin kəskin enməsi ilə ələqədar da Azərbaycanın milli valyutası dollara nisbətdə dəyər itirməyəcək. Buna böyük valyuta ehtiyatları da təsir edir. Xatırladaq ki, ötən il Azərbaycan Dövlət Neft Fondunun vəsaitləri 4.808 milyard dollar və ya 2018-ci illə müqayisədə 12.5% artıb. Beləliklə fondun aktivləri 43.323 milyard dollara çatıb. Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları da 6,4 milyard dollara çatıb və Maliyyə Nazirliyinin xəzinə hesabındakı vəsaitlər nəzərə alınmaqla ölkənin valyuta ehtiyatları 52 milyard dolları keçib. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, bu ilin yanvar ayında məhsulların idxalı 720,9 milyon dollar təşkil edib. Beləliklə, Azərbaycanın strateji valyuta fondları ölkənin bütün idxalının əvəzini 72 ay və ya altı il ərzində ödəmək qabiliyyətinə malikdir. Məhz belə vəziyyət milli valyuta üzərində devalvasiya təhdidini aradan qaldırır.




**Bütün bunlarla yanaşı, Azərbaycan iqtisadiyyatı, neftin bir barrelinin dəyəri 40-45 dollar səviyyəsində olsa belə, çox uğurla inkişaf edə biləcək. Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı da xüsusi olaraq vurğulayır: "Azərbaycan hətta bir barreli 30 dollardan aşağı olan neft üçün də "immunitet" əldə edib. Hətta neftin qiyməti 40-45 dollar arasında olsa belə, biz cari hesab balansını qoruya bilərik. Bu da ciddi inflyasiya təhdidlərinin və manatla bağlı narahatlıqların olmaması-nı göstərir".**

*Ramil QULİYEV*

# Koronavirusla mübarizə dövründə Azərbaycan mediasının peşəkar və dövlətçi davranışları...

***Müşfiq Ələsgərli:** "Prinsip etibarilə ölkəmizin ənənəvi və peşəkar mediası kifayət qədər təmkinli davranmağa və rəsmi xəbərləri yaymağa üstünlük verdi"*

**Azərbaycanda koronavirusa qarşı mübarizədə dövlət səviyyəsində həyata keçirilən tədbirlər, müxtəlif qurumların verilən tapşırıqları zamanında icra etməsi, hər qurumun öz üzərinə düşəni uğurla görməsi ölkəmizdə virus əndişəsini arxada qoyub.**

Heç şübhəsiz ki, bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərin təbliğ edilməsində, əhaliyə çatdırılmasında medianın da rolu görsənməlidir. Azərbaycan mediasının bu virusla mübarizədə sərgilədiyi münasibət, atdığı addımlar nəzərdən qaçmır.

Bir çox ekspert hesab edir ki, Azərbaycan mediası virusla mübarizədə heç də dövlət qurumlarından az iş görmür. Mediamızın bu virusla bağlı ajiotaj, panika yaratmaq yönümlü yazılara, xəbərlərə üstünlük vermədiyini deyən ekspertlərin fikrincə, mətbuat dövlətçi mövqe ilə çıxış etməklə yanaşı, həm də bu məsələyə peşəkar münasibət sərgiləyib.

Media üzrə tanınmış ekspert Müşfiq Ələsgərlinin sözlərinə görə, ölkəmizin ənənəvi və peşəkar mediasından fərqli olaraq, bəzi qondarma KİV və sosial şəbəkələr bu məsələdə antidövlətçi mövqe nümayiş etdiriblər. "Prinsip etibarilə ölkəmizin ənənəvi və peşəkar mediası kifayət qədər təmkinli davranmağa və rəsmi xəbərləri yaymağa üstünlük verdi. Amma təəssüf ki, "bir nəfərlik" xəbər saytları, eyni zmanda, bəzi qondarma KİV qurumları, xüsusən də sosial şəbəkələr çox ciddi yanlışlıqlara yol verdilər. Əlbəttə, sosial şəbəkələrdə yanlışlıqların olması bir az da olsa anlaşılandır. Çünki dünyada təqribən 3 milyarddan artıq insan sosial şəbəkə istifadəçisidir. Azərbaycanda da onların sayı 2 milyondan yuxarıdır. Bu 2 milyon insanın heç də hamısı intellekt, təhsil, hadisələrə münasibət baxımından eyni səviyyəli insanlar deyil. Yəni bu nöqteyi-nəzərdən sosial şəbəkələrdə müəyyən naqisliklərin, yanlışlıqların olması bəlkə də başadüşüləndir. Ancaq diqqət yetirəndə məlum oldu ki, bu dəfə koronavirus ətrafında yaradılan ajiotaj, panika, təşviş hansısa qüvvələr tərəfindən idarə olunur. Bunu sübut edən hallar ortaya çıxdı. Məsələn, bilirsiniz ki, bu halları törədənlər daha çox "WhatsApp" üzərindən müxtəlif səs yazıları dövriyyəyə buraxdılar. Ekspertlər araşdıranda məlum oldu ki, eyni mətn müxtəlif dillərdə müxtəlif ölkələrdə eyni üsuldan istifadə olunaraq yayılmaqdadır. Bu da onu göstərir ki, bu mətn konkret olaraq hansısa mərkəz tərəfindən hazırlanıb və müxtəlif dillərə tərcümə olunaraq yayılır. Sonra isə sosial şəbəkələrdə müəyyən qruplar ona istinad edərək yanlış xəbərlər yayırlar. Bir az da təhlil edəndə burada müəyyən hədəflər də müəyyən olunur. Hiss olunur ki, bu prosesi təşkil edənlər ayrı-ayrı dövlətlərə, özlərinə rəqib gördükləri ölkələrə qarşı xüsusi kampaniyalar aparırlar. Bu da sosial şəbəkə üzərindən aparılan kampaniyalarda artıq üzə çıxmaqda və görükməkdədir. Buna görə də bizim sosial şəbəkə istifadəçiləri ehtiyatlı olmalıdırlar. Kimlərsə heç bir qərəzi olmadan aldığı informasiyaların təsirinə düşərək bu cür informasiyaları "kopyalayıb" yayırsa, anlamalıdırlar ki, ortada bir təxribatçı qüvvə var və bu cür kampaniyalara qoşulmasınlar. Amma kimlər ki, bu kampaniyanı düşünülmüş, qərəzli şəkildə aparırsa, təbii ki, onlara qarşı müəyyən ölçü götürülməlidir. Qaldı ki, o cür təxribatçı informasiyalara və şüurlu kampaniyalara istinad edib məlumat yayan bəzi KİV qurumlarının o informasiyaları tirajlamasına, bu heç də başadüşülən deyil. Anlaşılmazdır. KİV qurumlarının vəzifəsi yayılan informasiyaları öncə araşdırmaq, sonra onları tirajlamaqdan ibarətdir. Yəni bu bizim peşə etikamızda birmənalı şəkildə əks olunub".

M.Ələsgərli qeyd etdi ki, bu cür hallar təkcə Azərbaycanda deyil. İki gün əvvəl Avropa jurnalist təşkilatları geniş bir toplantı keçirib və təşkilatlar adından yekun bəyanat qəbul olunub. Həmin bəyanatda da koronavirus ətrafında xoşagəlməz bir kampaniya aparılmasının qeyd edildiyini deyən M.Ələsgərlinin sözlərinə görə, o sənəddə yekun olaraq insanların sosial şəbəkələrə deyil, peşəkar media qurumlarına istinad etməli olduğu tövsiyə edilib. "Ənənəvi, peşəkar media qurumlarına da müraciət olundu ki, onlar bu cür durumda məsələyə həssas yanaşsınlar və insanlara doğru, düzgün məlumat çatdırsınlar, daha çox rəsmi qurumların məlumatlarını yaymağa çalışsınlar. Eyni zamanda, Avropa jurnalist təşkilatları tərəfindən dövlət və hökumət qurumlarına müraciət edildi ki, onlar da, öz növbələrində, media qurumlarını operativ informasiyalarla təmin etsinlər ki, KİV qurumları da zəruri olan informasiyaları ictimaiyyətə çatdıra bilsinlər. Demək istəyirəm ki, bu məsələ artıq lokal deyil, beynəlxalq məsələdir. Sözügedən qurumun toplantısında belə bir fikir vurğulandı ki, koronavirusun bir bioloji virus olaraq insanlara vurduğu zərərdən daha çox onlara koronavirus ətrafında aparılan süni kampaniya zərər vurdu. Onlar bundan daha çox əziyyət çəkdilər" - deyə M.Ələsgərli qeyd etdi.

Azərbaycanda bu işin çox peşəkar səviyyədə qurulduğunu deyən M.Ələsgərli hesab edir ki, peşəkar KİV öz öhdəsinə düşən işləri yaxşı şəkildə yerinə yetirdi: "Azərbaycanda koronavirusla mübarizə tədbirləri çox yüksək səviyyədə qurulub. Dövlət başçısının rəhbərliyi ilə dövlət qurumları bu məsələyə kifayət qədər operativ reaksiya verdilər və önləyici addımlar atdılar. **Nazirlər Kabineti yanında Operativ qərargahın yaradılması, buna müvafiq olaraq ciddi addımların atılması, təhsil müəssisələrində müvəqqəti olaraq təhsil prosesinin saxlanması və müəssisələrin dezinfeksiya edilməsi, sığınacaqların təşkil olunması, səhiyyə müəssisələrinin hazırlıqlı duruma gətirilməsi, qaynar iş rejiminə keçilməsi onu göstərdi ki, Azərbaycan dövləti və dövlət başçısı məsələyə çox həssasdır. Dövlət imkan vermək istəmir ki, Azərbaycanın bir nəfər də olsa vətəndaşı bu virusdan əziyyət çəksin. Burada vətəndaşların üzərinə düşən iş məsələyə həssas yanaşmaq və dövlətə güvənməkdir, informasiyanı dövlət qurumlarından və peşəkar mediadan alsınlar".**

***İradə SARIYEVA***



*"Amma təəssüf ki, "bir nəfərlik" xəbər saytları, eyni zamanda, bəzi qondarma KİV qurumları, xüsusən də sosial şəbəkələr çox ciddi yanlışlıqlara yol verdilər"*

**Azərbaycan dövlətinin koronavirusla bağlı apardığı mübarizə beynəlxalq təşkilatlar tərəfindən də müsbət qarşılanır. Ölkə başçısının tapşırığı ilə bu istiqamətdə görülən işlər, virusun yayılmaması üçün həyata keçirilən qabaqlayıcı tədbirlər dünyanın da diqqətini çəkir.**

# Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın koronavirusla kompleks mübarizəsinə necə qiymət verdi...



## *Adil Qeybulla: "...Azərbaycanda görülən işləri bu şəkildə qiymətləndirməsi çox müsbət haldır"*

Azərbaycanda həyata keçirilən antivirus tədbirləri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri nəzərə alınmaqla reallaşdırılır.

Qeyd edək ki, təxminən bir həftə əvvəl ÜST Azərbaycanda aparılan antivirus mübarizəsini yüksək qiymətləndirmişdi. Martın 4-də isə ÜST-in Azərbaycandakı nümayəndəsi Hande Harmancı İTV-yə müsahibəsində Azərbaycandakı vəziyyəti təhlil edərək mübarizə tədbirlərini yüksək qiymətləndirib.

"İndiyə kimi Azərbaycanda 3 koronavirusa yoluxmuş şəxs təsbit olunaraq ÜST-ə məlumat verilib. "COVID-19" analiz nəticəsi müsbət olan bu üç şəxs, əslində, xəstə deyil. Onlarda hər hansı bir simptom - öskürək, qızdırma halı yoxdur. Sadəcə, müşahidə altındadırlar və izlənirlər. Həm TƏBİB, həm də Səhiyyə Nazirliyi bu işlə ciddi məşğul olur. Xüsusilə İranla olan sərhəd bölgəsində ciddi nəzarət var. Bildiyimə görə, hazırda 6 xəstəxana koronovirusla bağlı ayrılıb. Bəziləri karantin xəstəxanalarıdır, bəziləri isə xəstəlik aşkar olunarsa, insanların müalicəsi üçün ayrılıb".

Hande Harmancı xəstəliyin statistikasının insanlardan gizlədilməsi ilə bağlı yayılmış fikirlərə münasibətində bildirib ki, dünyada bəzi hökumətlər insanlar panikaya düşməsin deyə bu yola əl atırlar. Ancaq müşahidələrə əsasən, TƏBİB-in bu mövzuda açıq davrandığını, ilk təşhisdə məlumat verildiyini bildirib: "İnsanların bu kimi hallarda məlumatlandırılması çox vacibdir.

### *"Ölkəmizdə antivirus tədbirləri ÜST-in verdiyi bütün tövsiyələr nəzərə alınaraq gerçəkləşdirilir"*

Belə davam etdirilməsinə də ümid edirəm. Çünki insanlar dövlət orqanlarına nə qədər çox güvənsə, problem bir o qədər sürətlə həll olunar".

Tanınmış səhiyyə mütəxəssisi, professor Adil Qeybulla "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ÜST Azərbaycandakı vəziyyəti daim nəzarət altında saxlayır və ÜST-in Bakı nümayəndəliyi rəhbərinin qiymətləndirməsi də müsbətdir. "Azərbaycanda həyata keçirilən koronavirusla bağlı mübarizə tədbirlərində ÜST-in tövsiyələri ciddi şəkildə nəzərə alınır. Ümumiyyətlə, ÜST Azərbaycandakı bu məsələni nəzarətdə saxlayır, daim müxtəlif səviyyələrdə bu mübarizə tədbirlərinə qiymət verir, münasibət bildirir. ÜST-in Azərbaycan nümayəndəliyi rəhbərinin koronavirusla bağlı Azərbaycanda görülən işləri bu şəkildə qiymətləndirməsi çox müsbət haldır. Qeyd etdiyim kimi, ölkəmizdə antivirus tədbirləri ÜST-in verdiyi bütün tövsiyələr nəzərə alınaraq gerçəkləşdirilir. Bu gün ÜST təmsilçilərinin Azərbaycanda olması, bu məsələni diqqətdə saxlaması müsbətdir. Onu da deyim ki, ÜST Azərbaycan və digər ölkələrdə xüsusi təhlükəli infeksiyaların yayılma təhlükəsi olarkən vəziyyəti nəzarətə alır və lazımi dəstək göstərir" - deyə A.Qeybulla qeyd etdi.

*İradə SARIYEVA*

---

**Çində ortaya çıxan və qısa müddətdə başqa ölkələrə də görülən koronavirus (covid-19) yayılmaqda davam edir. Xüsusilə son dövrlərdə İran və İtaliyada həyatı kabusa çevirən koronavirus bütün dünya üçün ciddi problemə çevrilib.**

# Koronavirus Azərbaycandan başqa hər yerdə tüğyan edir




Baki-xeber.com xəbər verir ki, İranın 31 vilayətinin 30-da yeni koronavirusa yoluxma halı rəsmən təsdiqlənib. Bu ölkədə koronavirusdan indiyədək 107 nəfər dünyasını dəyişib. İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin mətbuat xidmətinin müdiri Kiyanuş Cahanpurun sözlərinə görə, ötən sutka ərzində 15 nəfər bu virus nəticəsində ölüb. Cahanpur bildirib ki, ötən sutka ərzində 591 nəfər yeni koronavirusa yoluxub və ümumilikdə yoluxanların sayı 3 513-yə yüksəlib. Nazirlik rəsmisi 739 nəfərin sağaldığını əlavə edib.

İranda ilin sonuna kimi (21 mart 2020-dək) məktəb və universitetlərin fəaliyyəti də dayandırılıb.

İranın səhiyyə, müalicə və tibbi təhsil naziri Səid Nəməki məktəb və universitetlərin fəaliyyətinin dayandırması nəticəsində istirahət məkanlarına səfərlərin ləğv edilməsini İran vətəndaşlarına tövsiyə edib. S.Nəməkinin sözlərinə görə, İran vilayət rəsmiləri, polis və digər qurumların köməyilə vilayətlər arasında gediş-gəlişlər məhdudlaşdırılacaq. Nəməki əlavə edib ki, virusa yoluxma və ya şübhəli halı gizlədən şəxslər cinayət məsuliyyətinə cəlb olunacaq.

Bundan başqa, İran və İraq arasında sərhəd gömrükləri dezinfeksiya işlərinə görə bir həftə müddətinə bağlana bilər. Məlumata görə, İraqın sərhəd gömrükləri idarəsi İran tərəfinə bunu elan edib və 7 martdan 15 martadək İran-İraq gömrükləri bağlanacaq.

Məlumatda bildirilir ki, İranı Xosrəvi, Sumar, Mehran, Çəzzabə və Şələmçə sərhəd gömrükləri bir həftə fəaliyyət göstərməyəcək.

Məlumatda qeyd olunur ki, İran və İraq sərhəd rəsmiləri arasında sərhədlərin açıq saxlanılması üçün məsləhətləşmələr davam edir. Bununla belə, iranlı ixracatçılar ehtiyatlı addım atmalıdır.

Çin hökuməti İrana qarşı sanksiyalar tətbiq edən ölkələri koronavirusa görə bu tədbirləri dayandırmağa çağırıb. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Çjao Litszyan bildirib ki, İran hökuməti və xalqı virusla mübarizə apardığı zaman birtərəfli sanksiyaların davam etməsi vəziyyəti daha da kəskinləşdirəcək: "Bu, həmçinin humanitar ruha ziddir. Çin epidemiya ilə mübarizədə maneələrin yaranmaması üçün İrana qarşı tətbiq olunan sanksiyaları dayandırmağa çağırır".

ABŞ Prezidenti Donald Tramp isə, İran qəbul edəcəyi təqdirdə, ABŞ-ın koronavirusla mübarizə ilə bağlı bu ölkəyə kömək göstərməyə hazır olduğunu deyib. D.Tramp bildirib ki, ABŞ bu virusun öhdəsindən yüksək səviyyədə gəlir: "Bizdə dünyanın ən yaxşı həkimləri işləyir. Biz bu mübarizədə bir çox ölkəyə kömək edirik. İran istəsə, onlara da kömək edə bilərik. Onlar çox ziyan çəkib".

İtaliyada isə koronavirusdan ölənlərin sayı 107 nəfərə çatıb. Ölkədəki 2706 nəfərin virusa yoluxduğu açıqlanıb. Ölkədəki təhsil müəssisələrinin martın 15-dək fəaliyyətinin dayandırıldığı bildirilir.

Avstraliyada isə ölənlərin sayı 2-yə yüksəlib. Ən son məlumatlara görə, ölkədə 51 nəfər virusa yoluxub. Avropada İtaliyadan sonra ən çox virus görülən Almaniyada yoluxanların sayı 262, Fransada isə 257-yə çatıb. Ən son Balkan ölkələrində aşkarlanan virusların mənbəyinin də İtaliya olduğu açıqlanıb.

Gürcüstanda koronavirusa yoluxanların sayı 4 nəfərə çatıb. Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzindən bildirilib ki, yoluxma aşkarlanan şəxs martın 1-də İtaliyadan qayıtmış Gürcüstan vətəndaşıdır.

Rusiyada isə koronavirusa yoluxmuş İtaliya vətəndaşı xəstəxanaya yerləşdirilib. Fevralın 29-da İtaliyadan Rusiyaya gəlmiş şəxs martın 2-də həkimə müraciət edib və koronavirus aşkar olunan xəstə infeksiya boksuna yerləşdirilib.

İsveçrədə koronavirusdan ilk ölüm faktı qeydə alınıb. Ölkənin qərbindəki Vo kantonunda martın 3-də xəstəxanaya yerləşdirilmiş 74 yaşlı xəstə vəfat edib. Qeyd olunur ki, həmin şəxs xroniki xəstəliklərdən əziyyət çəkirmiş.

İndoneziya hökuməti koronavirusa yoluxanları kimsəsiz adaya yerləşdirməyi planlaşdırır. Qeyd edilir ki, hökumət koronavirusa yoluxanlar üçün məskunlaşmamış Qalanq adasında xəstəxana təşkil edəcək. Əvvəllər vyetnamlı qaçqınlar yerləşdirildiyi adada hazırda xəstəxananın salınması imkanları nəzərdən keçirilir. Qeyd olunur ki, xəstəxanada minədək xəstə yerləşdirilə bilər. Bundan başqa, adada karantin mərkəzinin salınması nəzərdə tutulur.

Birləşmiş Millətlər Təşkilatı yeni tip koronavirusun yayılmasına görə 290 milyondan çox şagird və tələbənin təhsilinin dayandırıldığını açıqlayıb.

# Yazıçılar Birliyində nə var ki, nə də "yeyintiyə yol verilsin"?!...

**Azərbaycan Yazıçılar Birliyi (AYB) daim diqqət mərkəzində olan, ətrafında müxtəlif qalmaqallar yaranan, həmişə polemika predmetinə çevrilən bir yaradıcı qurumdur. Ölkəmizdə AYB-dən başqa bu qədər gündəmdə olan ikinci bir yaradıcı qurum tapmaq çətindir. Digər yaradıcı qurumlar kimi, AYB də dövlət büdcəsindən ayrılan dotasiya hesabına yaşayır, öz nəşrlərini çap edir, fəaliyyətinə aid digər işləri görür.**

***Səxavət Sahil:** "Ölkə başçısının Yazıçılar Birliyinə ayırdığı vəsait hesabına yalnız AYB-yə yaxın olan gənclərin kitabları nəşr edildi, digər gənc yazarlar kənarda qaldı"*

Məsələ burasındadır ki, indiyə qədər AYB-nin büdcəsi ictimaiyyətdən gizlin saxlanır.

Bəzi məlumatlara görə, qurumun illik büdcəsi 1 milyon manat təşkil edir. Amma bu da dəqiqləşməmiş məlumatdır. Qeyd edək ki, keçən il Prezident İlham Əliyev "Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdı və Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Yazıçılar Birliyinə 800 (səkkiz yüz) min manat vəsait ayrılmışdı. 2020-ci ildə isə dövlət büdcəsindən AYB-yə ayrılan vəsaitin, dotasiyanın məbləği açıqlanmır.

Bu arada gənc yazarlar sosial şəbəkələrdə, mətbuat orqanlarında AYB-yə ayrılan vəsaitin ədəbiyyata yönəldilmədiyinə, Birlik orqanı olan nəşrlərə verilən dotasiyanın bu istiqamətdə xərclənmədiyinə dair iddialar, fikirlər yer alıb. Onu da deyək ki, bu məsələ həmişə gündəmdə olub və əvvəlki nəsil yazarlar da bu qənaətdə olublar ki, AYB-yə və onun orqanlarına ayrılan vəsaitin çox cüzi bir hissəsi aidiyyəti sahəyə ayrılır. Hətta o da iddia edilir ki, AYB-də yazıçı və şairlərin, ədəbiyyatşünasların yubileylərinə, ad günlərinə hədiyyə almaq, onları mükafatlandırmaq üçün nəzərdə tutulan vəsaitin də heç də hamısı bu işə sərf edilmir. İddialara görə, tutalım, sənəddə yubilyara 1000 manatlıq hədiyyə alındığı qeyd edilsə də, ona 100, uzaqbaşı 200 manat dəyərində hədiyyə alınır, qalan vəsait isə silinir.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, gənc və istedadlı yazar Səxavət Sahil özünün "Facebook" hesabında AYB orqanı olan "Ədəbiyyat" qəzetinin, eləcə də AYB-yə ayrılan vəsaitin xərclənməsində qeyri-şəffaflığa yol verildiyini, bu vəsaitin ədəbiyyatdan çox şəxsi büdcələrə yönəldildiyini qeyd edib. Səxavət bəyin fikirləri diqqətimizi çəkdiyindən, bu məsələ ilə bağlı onun fikirlərini daha geniş şəkildə təqdim etmək istədik.

**- Səxavət bəy, yalnız siz deyil, bir çox həmkarınız AYB-yə və onun orqanlarına ayrılan vəsaitlərin böyük hissəsinin ədəbiyyata xərclənmədiyini qeyd edirsiniz. Hətta bildirirsiniz ki, AYB orqanı olan "Ədəbiyyat" qəzetinə ayrılan 200 min manat dotasiyadan yazarlara çox cüzi qonorar yazılır. Bunu nə ilə əsaslandırırsınız?**

- Ayrıca "Ədəbiyyat" qəzetinə 200 min manat dotasiya ayrılıb. Yazıçılar Birliyinin özünün büdcəsi başqadır. Burada söhbət "Ədəbiyyat" qəzetinə ayrılan dotasiyadan gedir, amma ortada heç bir nəticə yoxdur. Dövlət digər sahələrə olduğu kimi, ədəbiyyata kifayət qədər vəsait ayırır, amma bu vəsait yazarlara gəlib çatmır. Yəni o qəzet öz səhifələrində özünə yaxın adamları tərifləməklə məşğuldur. Müəlliflər də yazılarına görə qəzetdən 15-20 manat qonorar alırlar. 200 min manat büdcəsi olan qəzet nə üçün 15-20 manat qonorar verməlidir?

**- Bu problem AYB-nin digər ədəbi orqanlarda da müşahidə edilirmi?**

- O mətbu orqanların içində kifayət qədər gənclərə açıq olan, büdcəsi gizli olmayan "Ulduz" jurnalıdır. Son dövrlər "Ulduz" gənclərlə bağlı ayrıca buraxılış çap edir. Amma təəssüf ki, "Azərbaycan" jurnalı haqqında eyni fikri söyləyə bilmirəm. Yəni bu jurnal da "Ədəbiyyat" qəzeti kimi öz səhifələrində imkanlı, məmur şair və yazıçıları tərifləməklə, onların əsərlərini şişirtməklə məşğuldur. "Ədəbiyyat" qəzetinin 36 səhifəsində ədəbi tənqidə aid bircə cümlə belə yoxdur. Ədəbiyyatın, ədəbi prosesin inkişafı əsasən ədəbi tənqidlə bağlıdır. Bu qəzet özünə yaxın olan şəxslərin təbliğatı və tərifi ilə məşğuldur. Ümumi mənzərə budur.

**- Bəs sizin fikirlərinizə, tənqid və iradlarınıza AYB-nin münasibəti necədir?**

- Biz bu barədə dəfələrlə AYB-yə məlumat vermişik, amma onlar da deyirlər ki, biz də bu halın baş verməməsini istəyirik. Amma, görünür, burada AYB-nin də öz maraqları var. Ona görə də heç bir nəticə, reaksiya yoxdur.

**- AYB-nin özünə dövlət büdcəsindən ayrılan vəsaitin də xərclənməsində qeyri-şəffaflığa yol verildiyi haqqında iddialar, fikirlər var. Mən özüm dəfələrlə yazıçı və şairlərin dilindən eşitmişəm ki, yazıçı və şairlərin yubileylərinə hədiyyə üçün ayrılan vəsaitin də böyük bir hissəsi ciblərə gedir, həmin yazarlara daha ucuz hədiyyələr alınıb. Bu barədə sizin fikriniz necədir, məlumatınız varmı?**

- Konkret olaraq bu fakta rast gəlməmişəm. Amma bu yaxınlarda ölkə başçısının Yazıçılar Birliyinə ayırdığı vəsait hesabına yalnız AYB-yə yaxın olan gənclərin kitabları nəşr edildi, digər gənc yazarlar kənarda qaldı. Prezident o pulu ədəbiyyata ayırıb, kimlərinsə özünə yaxın bildiyi insanların kitablarını çap etməyə yox. Amma Birliyə yaxın olmayan gənclərin kitabları nəşr edilmədi. Azərbaycan Yazıçılar Birliyi tənqidlərdən nəticə çıxarmır, ədəbi gənclik, ədəbi proseslərlə bağlı susqunluq mövqeyi nümayiş etdirir. Yalnız qurumun tərəfdarı olan, AYB-yə yaxınlığı ilə seçilən gənclərin kitabları çap edilir, onlar təbliğ olunur. Bu da gənc yazarların haqlı narazılığına səbəb olur.




*"Dövlət tərəfindən AYB-yə ayrılan vəsait konkret şəxslərə deyil, ədəbiyyata ayrılır, ancaq təəssüf ki, bu pullar şəxsi maraqlara xərclənir"*

**- Yazıçılar Birliyinin əsas vəzifələrindən biri beynəlxalq əlaqələri gücləndirmək və bütün yazarların, o cümlədən də gənc yazıçı və şairlərin əsərlərini, kitablarını xarici dillərdə çap edib yaymaqdır, təbliğ etməkdir. Qurum bu işin öhdəsindən necə gəlir?**

- Çox maraqlı məsələyə toxundunuz. Bu sahədə də çox ciddi problem var. Birlik yalnız özlərinə yaxın olan gənc yazarların əsərlərini tərcümə etdirib yayır. Son zamanlar görürsünüz ki, kitabları AYB-nin xəttilə xarici dillərdə çap olunan və təbliğ edilən şəxslər yalnız Yazıçılar Birliyinin yüksək vəzifəli şəxsləridir, katibləridir, eyni qurumu tərifləyən gənclərdir. Amma bu belə olmalı deyil. Əgər xaricdə kitab çap olunursa, bu o demək deyil ki, birinci növbədə Yazıçılar Birliyinin rəhbərliyi, yaxud onlara yaxın olan şəxslər çap olunmalıdır. Dövlət tərəfindən AYB-yə ayrılan vəsait konkret şəxslərə deyil, ədəbiyyata ayrılır, ancaq təəssüf ki, bu pullar şəxsi maraqlara xərclənir. Biz dəfələrlə deyirik, yazırıq, amma yenə də nəticə vermir.

**- Səxavət bəy, bu ilin martında Yazıçılar Birliyinin növbəti qurultayının keçiriləcəyi barədə fikirlər vardı, hətta qurum rəhbərliyi də məlumatı təsdiqləmişdi. Necə bilirsiniz, Birliyin qurultayı keçiriləcəkmi?**

- Bilirsiniz, hətta Azərbaycan Respublikasının Parlamenti də növbədənkənar seçkilərə getdi, amma Yazıçılar Birliyinin qurultayı keçirilmədi. Yazıçılar Birliyinin qurultayının keçirilməsinin vaxtı çoxdan çatsa da, qurum qurultay keçirmək əvəzinə, vaxtı uzatmaqla məşğuldur. Biz də bilmirik qurultay nə vaxt olacaq? Deyirlər ki, bu yaxınlarda olacaq, bu ay olacaq, yoxsa dekabrda olacaq, bilmirik. Qurultayla bağlı heç bir hazırlıq işləri aparılmır. Qurultaya hazırlıq prosesi getmir. Yenə əvvəlki qaydada qurultay keçirib həmişəki nəticəni əldə etmək istəyirlər.

**- Səxavət bəy, siz də o fikirdəsiniz ki, AYB-yə dövlət büdcəsindən ayrılan vəsait ədəbiyyatdan çox başqa məqsədlərə xərclənir. Bəzi həmkarlarınız deyirlər ki, aidiyyəti dövlət qurumları tərəfindən Birliyə ayrılan vəsaitin hansı istiqamətlərə yönəldildiyi ilə bağlı araşdırmalar aparılmalıdır. Sizin fikriniz?**

- Razıyam. Azərbaycan Yazıçılar Birliyi hər ilin sonunda dövlət büdcəsindən quruma ayrılan vəsaitin hara xərclənməsinə dair hesabat verməlidir. Yəni hesabat verilməlidir ki, AYB-yə Mədəniyyət Nazirliyinin xəttilə, eləcə də digər xətlərlə ayrılan vəsait hara xərclənir. Bu vəsait kimlərinsə şəxsi səfərlərinə, kimlərinsə şəxsi kitablarının çapına cəlb edilə bilər? Amma onlar bu barədə məlumat vermirlər. AYB il ərzində gördüyü işlərə bağlı hesabat verməlidir ki, filan kitabları çap etmişik, filan əsərləri tərcüməyə cəlb edib kitab çap etmişik. AYB-nin illik büdcəsinin hara xərcləndiyi gizlədilməməlidir, digər qurumlar kimi, ictimaiyyətə açıq olmalıdır. Hamı bilməlidir ki, ədəbiyyata ayrılan pul hara xərclənir. Bilirsiniz ki, ədəbiyyata ayrılan vəsait vətəndaşın büdcəsindən gedir, amma heç bir nəticə yoxdur. Kimə nə qədər pul mükafatı verildiyi, ədəbi orqanlarda hansı yazara nə qədər qonorar verildiyi açıqlanmır. Mən bunu "Ədəbiyyat" qəzeti ilə bağlı yazdığım yazıda da qeyd etmişdim. Bilirsiniz, dövlət büdcəsindən ədəbiyyata ayrılan vəsait çox zaman şəxsi vəsait kimi xərclənir, kimlərinsə istəyinə uyğun yönəldilir.

**- Xarici ölkələrin yaradıcı qurumlarına vəsait əsasən müxtəlif fondlardan, iş adamlarının, şirkətlərin büdcəsindən ayrılır. Onlar necə, öz xərcləri barədə ictimaiyyətə hesabat verirlərmi? Yəni onlara ayrılan vəsaitin xərclənməsi şəffafdırmı?**

- Xarici yaradıcı qurumların illik gəlirləri və xərcləri qətiyyən gizli saxlanmır, bu açıqlanır. Deyim ki, Gürcüstan, Türkiyə, hətta Rusiyanın özündə belə ədəbiyyata dövlət tərəfindən, yaxud fondlar, təşkilatlar tərəfindən Yazıçılar Birliyinə, yaxud digər yaradıcı təşkilata ayrılan vəsaitin məbləği, onun hara xərcləndiyi açıqdır. Amma təəssüf ki, bizdə bu belə deyil, bu məsələ qapalıdır. Müasir kommunikasiya texnologiyalarının inkişaf etdiyi dövrdə bu məsələni qapalı saxlamaq mənə qəribə gəlir, gülməli görünür. Yəni bunlar dövlətin ədəbiyyata ayırdığı pulu öz şəxsi vəsaitləri kimi istədikləri şəkildə sərf edirlər. Mən belə düşünürəm və bunu çoxu təsdiqləyə bilər.

***İradə SARIYEVA***

№ 41 (4172) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

6 MART 2020-ci il

www.baki-xeber.com



İlk ingilis qadın astronavtı Dr.Helen Şerman 1991-ci ildə Sovet "Mir" kosmik stansiyasında 8 gün keçirib.

## İngilis astronavt yadplanetlilərin aramızda yaşadığını iddia edir

Qadın yadplanetlilərin aramızda yaşadığını açıq şəkildə iddia edir. "Milli.Az" bildirir ki, "The Guardian" jurnalının müxbirlərinə verdiyi son müsahibədə Şerman, yadplanetliləri görmədiyini, ancaq kosmosda olanda bizim bu kainatda tək varlıq olmadığımız fərq edib. Qeyd edək ki, bu haqda yalnız Helen Şerman danışmayıb. Oxşar bir iddia haqda amerikalı astronavt Qordon Kuper də 2000-ci ildə hərbi pilot olarkən bir UFO gördüyünü söyləyib. "Ay üzərində gəzən altıncı adam" hesab edilən digər bir amerikalı astronavt Edqar Mitçel, hətta yadplanetlilər və uçan naməlum obyektlərlə bağlı bütün sənədləri və məlumatların ictimaiyyətə təqdim edilməsi ilə bağlı ABŞ hökumətinə müraciət edib.

## Nəyə görə Tibet monaxları hər səhər isti su içir...

**Qədimdən Tibet monaxları bir vacib səhər ritualına əməl edir: oyanan kimi mədəyə birinci isti su getməlidir.**

Onlar hesab edir ki, oyanan orqanizmə yalnız isti su dəstək ola bilər. "Medicina.az" bu metodun təsirlərini təqdim edir. 1. Bağırsaqların petistaltikası mexanizmini işə salır. 2. Uzun gecə yuxusundan sonra orqanizmin susuzlaşmasını dərhal aradan qaldırır. 3. Qan laxtalanması, durğunluğu, limfa durğunluğunu azaldır. 4. Mədə-bağırsağın əzələsini rahatladır, spazmı götürür. 5. Metobolizm sürətlənir. 6. Şlaklar təmizlənir. 7. Qəbizlik aradan qalxır, orqanizm saat kimi dəqiq işləyir. 8. Sidik sistemi yaxşı çalışır. 9. İnsanın energetik balansı düzəlir. 10. Bədən və orqanizm sağalır. 11. İnsan gəncləşir. Dərəcəsi və vaxtı: Su 42 dərəcə istilikdə olmalıdır. Təmiz içməli su yeməkdən 40 dəqiqə əvvəl içilir. Stəkanı başa çəkməyin, su aramla içilməlidir

Soyuq su içmək olmaz.



## Elan

Əliyev Məcid Nuru oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, A.Salahzadə küçəsi 1 ünvanında yerləşən evin, reyestr kitabının nömrəsi 6709, inventar işi N155 olan qeydiyyat vəsiqəsi və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Əliyev Diloş Həzi qızının adına, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Fətəliyev küçəsi, ev 1, mənzil 50 ünvanının qeydiyyat vəsiqəsi (seriya ÖM N053973) itdiyi üçün etibarsız sayılır.

---

Əliyev Məmmədəli Sərdar oğlunun adına, Abşeron rayonu, Novxanı kəndində yerləşən torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-1212A kod 30800118) itdiyi üçün etibarsız sayılır.

## Suda-quruda yaşayanlar arasında epidemiya tropik ərazilərdə ilanların azalmasına səbəb olub

**Amerika alimləri aşkar ediblər ki, "Batrachochytrium dendrobatidis" (Bd) göbələk epidemiyası ilə əlaqədar qurbağa və digər amfibiyaların kütləvi şəkildə məhv olması tropik ərazilərdə ilanların sayının və növ müxtəlifliyinin azalmasına gətirib çıxarıb.**



Bu barədə məqalə "Science" jurnalında dərc edilib. "AZƏRTAC" bildirir ki, məqalənin müəlliflərindən biri, Merilend Universitetinin (ABŞ) professoru Karen Lipsin sözlərinə görə, qurbağalar yoxa çıxandan sonra ilanlar dəstəsində kəskin dəyişiklik baş verib. Onların növ müxtəlifliyi və sayı azalıb. İlanların görkəmindən onların çox ac qaldıqları görünürdü. "Batrachochytrium dendrobatidis" Afrika göbələyinin yaratdığı xitridiomikoz xəstəliyi bu gün Yer üzündə bütün amfibiyaların mövcudluğu üçün böyük təhlükədir. İlk dəfə alimlər bu epidemiyanın yayılması barədə 1998-ci ildə məlumat veriblər. Həmin vaxtdan bəri Bd xəstəliyinin qeydə alındığı 87 ölkədə epidemiya 90 növ suda-quruda yaşayanı, milyonlarla qurbağanı və qurbağakimiləri məhv edib. Epidemiya yayıldığı yeni regionda ona yoluxan suda-quruda yaşayanların təxminən yarısını qısa müddətdə məhv edir. Yoluxma mexanizmi məlum deyil. Alimlərin fikrincə, bu göbələk xərçənglər və digər onurğasızlar vasitəsilə yayılır. Tədqiqatçılar Panamanın El-Kope milli parkında (bu əraziyə epidemiya 2004-cü ildə çatıb) ilanların növ müxtəlifliyini və sayını tədqiq edərək Bd epidemiyasının yayılmasında yeni nəticələr aşkarlayıblar. Onlar, həmçinin 1998-2010-cu illər arasında ilanların sayı ilə bağlı müqayisələr aparanda məlum olub ki, Panamada ən geniş yayılmış növlər əhəmiyyətli dərəcədə azalıb. Eləcə də, Bd epidemiyasından sonra ilanların nadir növləri meşələrdə gözə dəyməyib. Lakin alimlər nadir ilanların məhv olduğunu və ya gözə dəymədiyini dəqiq söyləyə bilmirlər. Alimlər digər tropik ərazilərdə və ekvatora yaxın en dairələrində də bənzər dəyişikliklərin baş verdiyini, yeni, son illər ilanların və digər bionövlərin sayının azaldığını qeyd edirlər. Onların fikrincə, müvafiq istiqamətdə tədqiqatların davam etdirilməsi epidemiyanın qarşısını alıb-almamağın mümkünlüyünü başa düşməyə və ona qarşı mübarizə aparmağa kömək edəcək.





**Qoç** - Dinamik və hadisələrin sürətlə inkişaf edəcəyi bir gündür. Rəqabət və ya işgüzar münasibətlərə şəxsi məsələlərin qarışması ambisiyalarınızla maliyyə gözləntilərinizə təsir edə bilər.



**Buğa** - Dəyişikliklər üçün əlverişli gündür. Fəallığınız yeniliklərə rəvac verməli, köhnə yeni ilə əvəzlənməlidir. Alış-veriş üçün əlverişli gündür. Axşam saatlarında qonaq qəbul etmək, yaxud da qonaq getmək olar.



**Əkizlər** - Emosional durumunz ətrafınızdakı insanlara təsir edir. Yaşamınıza yeni mövzu daxil yeni maraq, fəaliyyət sahəsi peyda olur. Narahatlıq və ya qayğı varsa, onun səbəbini anlamağa çalışın.



**Xərçəng** - Ehtiyatıl olun, sərvaxt davranın. Maliyyə çətinlikləri, itkilər istisna deyil. Yaxınlarınız sizi dəstəkləməyə çalışır, yaxşı məsləhətlər verirlər. Yalnız öz fikirlərinizi həqiqət saymayın.



**Şir** - Emosiyalara qapılmayın, məntiqlə hərəkət edin. "Bu mənə lazımdırmı?" sualına cavab tapmadığınız işlə məşğul olmayın. Mühüm məsələlərdən birində artıq səhər yön dəyişməsi və istiqamətin fərqli vəziyyət alması istisna deyil.



**Qız** - Sizi maraqlandıran hadisələrin mərkəzində olun, mühüm olayı nəzərdən qaçırmayın. Konkret planlar qurmayın. Gərginlikdən, narahat gözləntidən qurtulun. Yaşamın özündən proses təki həzz alın, həyat arealınızı tədqiq edin.



**Tərəzi** - Ciddi hisslər yarada biləcək tanışlıq yaşana bilər. Perspektivi olmayan işə başlayaraq vaxt itkisinə yol verməyin. Günün ikinci yarısında təmayüllərdən yararlanaraq çox iş görə bilərsiniz.



**Əqrəb** - Dörd divar arasında qalmayın, harasa gedin, ünsiyyətdə olun, tərifləyin, təriflənin, rəğbət nişanələrini hiss edin. Görüş və ya virtual kontakt istisna deyil. Rəqabətin güclənməsi də ola bilər.



**Oxatan** - İnkişaf edən hadisələr məcrasında bu gün önəmli olacaq. Passivlik etməyin, ətalət nümayişindən kənar durun. Yaxın ətrafınızdakı insanlarla münasibətlərdə yeniliklər, sürprizlər ola bilər.



**Oğlaq** - Gün paradoks, çoxdan bəri cavab tapmağa çalışdığınız sualın açmasını və ya xəbərdarlıq vəd edir. İntuisiyanızı dinləyin. Harasa getmək və ya tam əksinə, o yerdən imtina etmək hissi yarana bilər.



**Dolça** - Hadisələrin axınından kənar qalmaq, hər şeyin sakitləşəcəyi anı gözləmək mümkün olmayacaq. Buna görə də günün ilk yarısından etibarən çevik, mütəhərrik, qıvraq olun. İşdə və evdə qayda yaradılması, nizamın bərqərar edilməsi ilə məşğul olun.



**Balıqlar** - Ailə münasibətlərində qarşılıqlı anlaşma ən önəmli məqamdır. Sevdiyiniz insan sizə sürpriz vəd edir. Aktiv ünsiyyətdə olun, bilik və bacarıqlarınızı bölüşün, təcrübənizdən başqalarının bəhrələnməsinə mane olmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## ABŞ-da balıqçı 17 kiloqramlıq balıq tutdu

**ABŞ-ın Nyu Hempşir ştatında yerli balıqçı nəhəng alabalıq tutub.**

"Trend" bildirir ki, 17 kiloqram çəkisi olan balıq ştat ərazisində tutulan ən iri balıq olub. Qeyd olunur ki, Nyu Hempşirdə indiyədək tutulan ən iri balığın çəkisi 12 kiloqram təşkil etmişdi. Balıqçı həmin balığı restoran sahibi olan dostuna verəcəyini deyib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.